www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 oktyabr 2018-ci il Cümə axşamı № 214 (7103) Qiymәti 60 qəpik

**Xəbər**

**Bakı-Sumqayıt yolunda dəhşətli qəza - yeni evlənən gənc öldü**

yazısı səh.14-də

**Gündəm**

**Məmur oliqarxiyasının sonu yaxınlaşır - prezidentdən mühüm və sərt ismarışlar**



Dövlət başçısı sonuncu müşavirədə problemli nöqtələri və görüləcək tədbirləri açıqladı...

yazısı səh.5-də

**Bakıdan Qarabağla bağlı mühüm bəyanatlar**

yazısı səh.11-də

**ABŞ diplomatı Bakıda mühüm görüşlər keçirdi, mətbuata ilginc açıqlamalar verdi**

yazısı səh.9-da

**Müəllimlik edən, biznes quran, nostalji yaşayan sabiqlər**

yazısı səh.3-də

**Köçkün evləri ilə bağlı müdhiş maxinasiya sxemi**

yazısı səh.7-də

**Nazir Mikayıl Cabbarova xüsusi rütbə verildi**

yazısı səh.2-də

**Restoran sahiblərinə sərt xəbərdarlıq**

yazısı səh.7-də

**Azərbaycanda terrorçuları maliyyələşdirənlərə qarşı mübarizə genişlənir - motiv**

yazısı səh.10-da

**İkinci Qarabağ mitinqi təyin edildi**

yazısı səh.2-də

**Kim Çen In Roma Papasını ölkəsinə dəvət etdi - ikinci cəhd**

yazısı səh.14-də

**Məhkəmə-Hüquq Şurası hakimləri yenə cəzalandırdı - proses sürətlənir**

yazısı səh.12-də

# AVROPA ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN YANINDA - SİYASİ DƏSTƏK VƏ... SİLAHLARLA

Almaniyadan örnək mövqe, Fransadan mühüm gözlənti; rusiyalı politoloq: "Ermənilər Bakının Parislə silah anlaşmasına mane ola bilməyəcəklər...."




yazısı səh.8-də

# Məharət Mustafayev Gəncədə bankları da xortumlayıb...

Gəncə şəhər Memarlıq və Şəhərsalma İdarəsinin barəsində cinayət işi başlayan sabiq rəisinin 78 mülkə dair xərac topladığı da bugünədək məlum olan faktlardandır; məşhur iş adamı köhnə rəhbərliyin dövründə necə aldadılıb...

yazısı səh.3-də



**Qüdrət Şükürovun şərikі həbs oluna bilər- sensasiya gəlişmə**

yazısı səh.4-də



**Jurnalist Camal Qaşıqçıya qarşı müdhiş cinayət dünyanı silkələyir**

yazısı səh.13-də



*Onkoloq Nəsimi Qasımov:*

**"Bədxassəli şişlərin yaranmasının başında siqaret gəlir"**

yazısı səh.6-da



## Prezident Şəki “ASAN Həyat” kompleksinin tikintisinə 19,8 milyon manat ayırdı

**Prezident İlham Əliyev Şəki “ASAN Həyat” kompleksinin layihələndirilməsi və tikintisi haqqında sərəncam imzalayıb. “Report”un məlumatına görə, sərəncamda bildirilir ki, ölkədə vahid standartlar çərçivəsində idarə olunan və vətəndaşlara keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyalar tətbiq edilməklə dövlət xidmətləri göstərilməsini təmin edən 17 mərkəz - “ASAN xidmət”, “ASAN Kommunal” və “ABAD” mərkəzləri fəaliyyət göstərir. Mərkəzlərin fəaliyyətinə dövlət qurumu və digər təşkilatların üç minədək əməkdaşı, habelə 13 mindən çox könüllü gənc cəlb edilib.**

“ASAN Həyat” kompleksləri və “ABAD” mərkəzləri vasitəsilə, həmçinin məşğulluğun inkişafı istiqamətində tədbirlər həyata keçirilib, 19 milyondan çox vətəndaş müraciəti üzrə əldə edilən məmnunluq əmsalı daima yüksək səviyyədə olub.

Şəki “ASAN Həyat” kompleksinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.52.1-ci yarımbəndində göstərilmiş məbləğin 19,8 milyon manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılıb.

## “Bakı-Gəncə sürət qatarında ikimərtəbəli elektrik qatarları hərəkətdə olacaq”




**Ölkənin yol-nəqliyyat infrastrukturunun yenilənməsi, inkişafı ilə bağlı bir çox işlər görülür ki, onlardan biri də sürət qatarlarının işə salınmasıdır. İlk olaraq, bu ilin sonuna qədər Bakı-Gəncə sürət qatarının işə salınması nəzərdə tutulub.**

Artıq bir neçə günə həmin istiqamətdə hərəkət edəcək sürət qatarlarına baxış keçiriləcək. Bununla yanaşı, Qəbələyə də dəmir yolu xəttinin çəkilməsinə başlanılıb.

“Azərbaycan Dəmir Yolları” QSC-nin mətbuat xidmətinin rəhbəri Sevinc Qədirova “Yeni Müsavat”a açıqlamasında hər iki istiqamətdə aparılan işlərin gedişatı ilə bağlı məlumat verib. O bildirib ki, Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi turizmin də inkişafına kömək edəcək: “Bu il yanvarın 10-da Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yekun nitqində cənab prezident İlham Əliyev qeyd edib ki, turizmin inkişafı üçün bir layihəni də biz dövlət investisiya proqramına salmışıq. Bu da Ləki-Qəbələ dəmir yolunun tikintisidir. Əlbəttə ki, dəmir yolunun Qəbələyə çatdırılması turistlərin axınını daha da sürətləndirəcək”.

**S.Qədirovanın sözlərinə görə, artıq Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisinə başlanılıb:** “Yeni dəmir yolu xətti Ləki stansiyasından sağ tərəfə çıxmaqla, Ağdaşın yanından keçməklə Qəbələnin hava limanına qədər olacaq. Artıq 175 metr dəmir yolu xətti çəkilib, 1 ədəd yoldəyişən qurğu qoyulub. 43 kilometrlik dəmir yolu xətti boyunca 75 suötürücü, bir neçə tunel və körpü, Qəbələ hava limanı yaxınlığında vağzal tikiləcək. Ləki stansiyasından Qəbələyə qədər olan ərazinin relyefi bir az mürəkkəbdir, dağlıq yerləri var. Ləki-Qəbələ dəmir yolu xəttinin təxminən 20 kilometri Qəbələ rayonunun dağlıq ərazisinə düşür. Bu ərazidə torpaq yatağı işləri görülür. Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisini 11 saylı İxtisaslaşdırılmış Dəmir Yolu Müəssisəsi MMC-nin kollektivi həyata keçirir”.

**Bakı-Gəncə sürət qatarı ilə bağlı aparılan işlər haqqında danışan S.Qədirova vurğuladı ki, qatarın xəttə buraxılması ilin sonuna qədər nəzərdə tutulur:** “Bu marşrutla da ”Stadler Rail Group" şirkətinin istehsalı olan “KISS” markalı ikimərtəbəli elektrik qatarları hərəkətdə olacaq".

**Nərgiz LİFTİYEVA**
**“Yeni Müsavat”**

# Deputat Azay Quliyev seçicilərini qəbul edib

**Milli Məclisin deputatı Azay Quliyev oktyabrın 10-da növbəti dəfə seçicilərini qəbul edib.**



Musavat.com xəbər verir ki, deputat seçiciləri ilə görüşərək onların problemləri ilə maraqlanıb. Müraciətlər əsasən məşğulluq, əmlak, hüquq məsələləri və digər mövzuları əhatə edib. Azay Quliyev bildirib ki, seçicilərini narahat edən məsələləri daim diqqət mərkəzində saxlayır və onların həlli üçün müvafiq addımlar atır.

Deputat deyib ki, seçicilərin ona ünvanladığı müraciətləri aidiyyəti qurumlara göndərməklə yanaşı, onların icra vəziyyətini də daim diqqətdə saxlayır.

Xatırladaq ki, bir Azay Quliyevin rəsmi internet səhifəsində seçicilərin qəbulu üçün online qeydiyyat sistemi fəaliyyət göstərir. 8 saylı Binəqədi birinci seçki dairəsinin seçiciləri elektron müraciət imkanından yararlanaraq daha da asan formada deputatlarının qəbuluna yazıla bilərlər.

**Musavat.com**




## Qüdrət Şükürovun yerinə Xalid Ələkbərov təyin olundu

**Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeliyində olan “Lift-Təmir” İstehsalat Birliyinə yeni baş direktor təyin edilib.**

Bu barədə virtualaz.org-a BŞİH-dən məlumat verilib.

Bildirilir ki, Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Eldar Əzizovun əmri ilə bu vəzifəyə Xalid Ələkbərov təyinat alıb.

Xalid Ələkbərov daha əvvəl BŞİH-in Şəhər Təsərrüfatı Departamentinin sosial iqtisadi inkişafının təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifəsində çalışıb və son günlər müvəqqəti olaraq “Lift-Təmir” İstehsalat Birliyinin baş direktoru vəzifəsini icra edirdi.

Qeyd edək ki, bir neçə gün əvvəl “Lift-Təmir” İstehsalat Birliyinin baş direktoru Qüdrət Şükürov işdən çıxarılıb.

Q.Şükürova qarşı CM-in 193-1-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma), 179.4-cü (mənimsəmə və ya israf etmə - xüsusi ilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi açılıb.



## İkinci Qarabağ mitinqi təyin edildi

### 18 siyasi təşkilat rəhbərindən biri mitinq müzakirəsində iştirak üçün dəvəti qəbul edib

**Bir sıra siyasi, ictimai təşkilatların rəhbərlərinin yaratdığı Qarabağ Komitəsi 2-ci Qarabağ mitinqinin günü, yeri və şüarlarının birgə müzakirə edilib razılaşdırılması və keçirilməsi üçün 10 oktyabrda geniş tərkibdə toplantı keçirib.**

Qarabağ Azadlıq Təşkilatının mətbuat xidmətindən verilən məlumata görə, müzakirələrdə Qarabağ Komitəsinin üzvləri İsgəndər Həmidov, Pənah Hüseyn, Mirmahmud Mirəlioğlu, Akif Nağı, Tural Abbaslı, Aydın Şükür, Əvəz Zeynallı, Sahib Musayev, Şakir Abbas, İlqar Əli, Rəşid Nazim, Yusif Süleymanlı, Ölövsət Sadıqlı, Rövşən Məmmədli, Həsən Həsənov və digərləri çıxış edərək təkliflərini veriblər. Komitə üzvləri mitinqlərin davamlı olmasının vacibliyini qeyd edib və növbəti mitinqin 24 noyabr 2018-ci il tarixə təyin olunması ilə bağlı qərar qəbul ediblər. Mitinqlə bağlı gələn həftə ərzində Bakı Şəhər İcra Hakimiyyətinə müraciət olunacaq.

İclasda təşkilati məsələlərə də baxılıb, keçmiş AXCP funksioneri Sahib Kərimli və Səxavət Nəsibov Komitəyə yeni üzv seçiliblər. Sonra partiyalara mitinqlə bağlı edilmiş müraciətin nəticələri, komitənin yerlərdə işinin təşkili və digər məsələlər müzakirə olunub, uyğun qərarlar qəbul olunub.

Qarabağ mitinqinin vaxtının nə üçün noyabrın 24-nə təyin olunduğu barədə sualımıza cavabında QAT sədri Akif Nağı bildirib ki, mitinqin noyabrın 24-nə təyin edilməsində bir sıra obyektiv və subyektiv amillər nəzərə alınıb: “Məncə, o qədər də uzaq vaxt deyil. Hazırlıqların aparılması üçün də bu müddət uyğundur”.

Akif Nağı qeyd etdi ki, mitinq qərarının birgə müzakirə edilib qərar verilməsi üçün 10 oktyabr toplantısında iştiraka dəvət etdikləri Qarabağ Komitəsinin üzvü olmayan 18 siyasi təşkilatın rəhbərindən yalnız Elşad Musayev toplantıya qatılıb və mitinqə dəstək verir. BAXCP İdarə Heyətindən müraciətə mətbuat vasitəsilə mənfi cavab verilib. Digər şəxslərin heç birindən hər hansı cavab olmayıb: “Biz yenə də bütün bunlara normal yanaşırıq, heç kəsi ittiham etmirik, işlərimizi davam etdiririk”.

Xatırladaq ki, Qarabağ Komitəsinin birinci Qarabağ mitinqi sentyabrın 29-da Yasamal rayonunda keçmiş “Məhsul” stadionunda keçirilib. Mitinqə Bakı Şəhər İcra Hakimiyyəti icazə verməmişdi.

**Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**



## Mikayıl Cabbarova xüsusi rütbə verildi

**Prezident İlham Əliyev M.Ç.Cabbarova 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.**

“Report”un xəbərinə görə, Azərbaycan Respublikasının vergilər naziri Mikayıl Çingiz oğlu Cabbarova 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilib.

## Valideynlərə xəbərdarlıq edildi: uşaqların çantasına nəzarət edilsin

**Suraxanı rayonu Hövsan qəsəbəsindəki 76 saylı tam orta məktəbdə bibər qazından zəhərlənən şagirdlər xəstəxanadan evə buraxılıb.**

Məktəbdən virtualaz.org-a bildiriblər ki, uşaqların vəziyyəti yaxşıdır. Məktəbdə şagirdlərin valideynləri ilə görüş keçirilib. Valideynlərə tövsiyə edilib ki, övladları dərsə gələrkən onların çantalarına qoyduqları əşyalara xüsusi nəzarət edilsin.

Təhsil ocağından qeyd olunub ki, hazırda məktəbdə hər şey qaydasındadır.

Qeyd edək ki, 6-cı sinif şagirdi məktəbə gözyaşardıcı bibər qazı gətirərək tənəffüsdə sinif yoldaşlarının üzünə püskürdüb. Nəticədə xəsarət alan 9 uşaq Respublika Toksikologiya Mərkəzinə yerləşdirilmişdi.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

**Gəncə şəhərini uzun illər ərzində talan etmiş, xeyli vətəndaşa saxta sənəd vermiş, onlarla adamın torpaq satmaq adı ilə pulunu alıb mənimsəmiş Gəncə Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma İdarəsinin sabiq rəisi Məharət Mustafayevə cinayət işi açılması barədə ötən sayımızda məlumat vermişdik.**




# Məharət Mustafayev Gəncədə bankları da xortumlayıb...

## Gəncə şəhər Memarlıq və Şəhərsalma İdarəsinin barəsində cinayət işi başlayan sabiq rəisinin 78 mülkə dair xərac topladığı da bugünədək məlum olan faktlardandır; məşhur iş adamı köhnə rəhbərliyin dövründə necə aldadılıb...

Qeyd edək ki, daha əvvəllər (2011-2014-cü illər) Gəncə şəhər Nizami rayonunun icra başçısı olmuş Məharət Mustafayev həmin vaxtlardan yerli əhaliyə, habelə onlarla sahibkara qan uddurub. O, nəhayət, Göygöl rayonunun bələdiyyə sədrini döydükdən sonra vəzifəsindən azad edilmişdi.

Bir müddət sonra - daha dəqiqi, 2016-cı ildə isə M.Mustafayev Gəncə Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma İdarəsinin sabiq rəisi vəzifəsinə təyin edilib. Bu vəzifədə olduğu müddət ərzində Gəncə şəhərində mülkiyyət, torpaq satışı məsələləri yalnız Məharət Mustafayevin "monopoliyasında" olub.

M.Mustafayevin qanunsuz əməlləri barədə "Yeni Müsavat"ın ötən saylarında yazılar dərc etmişik. Onun çoxlu sayda şəhər sakininə saxta sənədlə torpaq satdığı, faktiki olaraq dələduzluq, sənəd saxtalaşdırma, vəzifə səlahiyyətlərindən sui-istifadə kimi cinayət xarakterli əməlləri törətdiyi, habelə onlarla sahibkarın pulunu inzibati qaydada mənimsəməsi haqda məlumat vermişdik. Məsələn, M.Mustafayev Gəncədə bir sıra parkları, binaları dövlət layihəsi üzrə abadlaşdıran iş adamına - "Kolani MMC"nin rəhbərinə 1 milyon 538 min manat pul "atıb". Dövlət büdcəsindən abadlıq işi üçün ayrılan pullar işləri görən şirkətə ödənməyib, M.Mustafayev tərəfindən mənimsənilib. Şirkətə bu qədər borcu olduğunu icra hakimiyyətinin möhürü ilə də təsdiqləyib, amma bu günədək ödəməyib...

Son məlumatda isə bildirilir ki, Gəncə Şəhər İcra Hakimiyyətinin yeni başçısı Niyazi Bayramov tərəfindən işdən azad olunmuş Məharət Mustafayevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək vətəndaşlardan müxtəlif məbləğlərdə pul toplaması və digər əməlləri ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət edilib. Müraciətlərə görə idarəyə çağırılan sabiq memara cinayət işi açılıb, ondan başqa yerə getməmə haqda iltizam alınaraq müvəqqəti azadlığa buraxılıb.

Məlum olub ki, cinayət işi Tutu Əhmədova, Eynulla Kərimov, Asim Kazımov və digərlərinin şikayəti əsasında açılıb və cinayət işi üzrə müəyyən istintaq hərəkətləri də aparılıb, M.Mustafayev bir neçə dəfə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə çağırılıb. Şikayətçilər iddialarında qeyd ediblər ki, M.Mustafayev onlara torpaq sahəsi ayıracağı adı altında müxtəlif məbləğlərdə pul alıb, lakin nə vəd olunmuş torpaq verilib, nə də pul geri qaytarılıb. Şikayətçilərdən T.Əhmədova Rusiya vətəndaşıdır və Baş Prokurorluğa yazdığı şikayətdə M.Mustafayevin ondan 100 min dollar aldığını bildirib.

Nəzərə çatdıraq ki, Gəncədə sabiq başçı Elmar Vəliyevin "sağ əli" kimi tanınan Məharət Mustafayevi yeni başçı Niyazi Bayramov işdən azad etməklə yanaşı, Memarlıq və Şəhərsalma İdarəsinin rəisinin fəaliyyətinin araşdırılması üçün komissiya yaradılması barədə də qərar vermişdi.

Musavat.com-a daxil olan məlumata görə, komissiyanın araşdırmaları zamanı Məharət Mustafayevin ağlasığmaz qanunsuzluqlar etdiyi bəlli olub.

**Məlum olub ki, Gəncənin keçmiş rəhbərliyi şəhərdə müxtəlif obyektlər inşa edib, həmin mülkləri ayrı-ayrı şəxslərin adına rəsmiləşdiriblər. Məqsəd isə bankları xortumlamaq olub! Bütün bu prosesi isə Məharət Mustafayev koordinasiya və icra edib, tapşırıqları, göstərişləri bilavasitə o verirmiş. Musavat.com-u bu haqda məlumatlandıran mənbə bir konkret faktı sadalayıb:** "Gəncənin mərkəzində, Cavadxan küçəsində yeni bir hotel tikilib. Bu hotel inşa olunmağa başlayarkən Məharət Mustafayevin təkidi və tələbi ilə Gəncədə tanınmış sahibkar, "Universam"ın keçmiş müdiri İsmayıl Hüseynovun adına banklardan 15 milyon manat kredit rəsmiləşdirilib. Daha dəqiqi, tikinti başlayanda İsmayıl Hüseynov banklardan 15 milyon manat kredit götürüb, bu inşa işlərinə yönəltməyə məcbur edilib. Ona deyilib ki, əgər bütün biznesini itirmək, özü də həbs olunmaq istəmirsə, bu deyilənlərdən imtina etməməlidir. Həmçinin Məharət Mustafayev Hüseynovu arxayın edib ki, hotel sabiq başçının yaxın adamlarından biri üçün tikilir, ona görə narahat olmasın, sadəcə, səs-küyə səbəb olmasın deyə kredit onun adına rəsmiləşməlidir. Kreditlər onun adına alınsın ki, şübhə doğurmasın. İş adamına deyilib ki, bankdan götürülən pulla hotel tikiləcək, sonra ödənişlər vaxtında ediləcək, ona heç bir problem də yaranmayacaq. Amma 2018-ci ilin hələ ilk aylarında İsmayıl Hüseynova bankdan zəng edib deyiblər ki, niyə ödənişləri etmir. Həmin vaxtdan başlayaraq, Məharət Mustafayev və icra hakimiyyətindəki digər vəzifəli şəxslər İsmayıl Hüseynova ödənişlərin texniki səbəbdən gecikdiyini deyərək, onu arxayın salmağa çalışıblar. İyul ayında baş verən məlum olaylardan və Gəncənin rəhbərliyi dəyişəndən sonra isə bank ödənişləri İsmayıl Hüseynovun üzərinə yönəldib. Ona bildirilib ki, aylardır ödəniş olmur və sənədlər də onun adınadır, başqa kimsə məsuliyyət daşıyırsa hüquq-mühafizə orqanlarına, məhkəməyə müraciət edə bilər, amma ödənişləri etməlidir. İsmayıl Hüseynov tanınmış futbolçu Yunis Hüseynovun böyük qardaşıdır".

**Qaynaq deyib ki, Gəncədə bankların xortumlanması yolu ilə inşa olunan obyekt təkcə qeyd edilən hotel deyil:** "Gəncədə "Qrand bazar" da İsmayıl Hüseynovun adına bankdan götürülən pulla tikilib. Köhnə rəhbərlik Gəncədə bütün bazarları bağlayıb, ticarətçiləri zorla bu bazara yönəltmişdi. Yeni başçı Gəncədə camaatla görüşəndə, əksəriyyət bazar problemindən gileylənib. Başçının tapşırığı ilə artıq ikinci aydır Gəncədəki bazarlar nəhayət ki, açılıb".

**Mənbə bildirir ki, bu cür oyunlar Gəncədə bir neçə tanınmış iş adamının başına gətirilib:** "Onları aldadıblar ki, adına kredit götürürük, sən narahat olma, ödəniləcək. İndi nə Məharət Mustafayevi tapa bilirlər, nə də bankı başa sala bilirlər. Faktiki olaraq banklar da pis duruma düşüb. Hər halda, dövlətin müvafiq qurumları bu məsələyə əncam çəkməlidir. Şəhərə məsul edilmiş şəxslər faktiki olaraq onlarla adamı ağlar vəziyyətdə qoyublar. İnsanlara vurulan bu ziyan necə ödəniləcək?"

**Qaynaq deyib ki, Gəncədə onlarla vətəndaş, kiçik iş adamları Məharət Mustafayevə torpaq almaq üçün pul ödəyiblər:** "Məharət Mustafayev aylarla onları süründürüb, indi də bəlli durum yaranıb. Bildiyim bir faktı deyim, hazırda konkret olaraq irili-xırdalı 78 mülkə dair şikayətçinin müraciəti Gəncə Şəhər İcra Hakimiyyətində müvafiq şöbələrə təqdim edilib. Hansı ki, həmin 78 mülkün, torpaq sahəsinin hər birinə görə Məharət Mustafayev şəxslərdən 5 min, 10 min, 20 min və daha yuxarı məbləğlər alıb, ancaq heç bir sənəd verməyib. Faktiki olaraq onların pulunu mənimsəyib. İnsanlar indi qalıblar ortada və hər biri də şikayətçidir. Bundan başqa, Məharət Mustafayev xeyli adama bir mülkü təkrar satıb. Məsələn, öyrənirmiş ki, hansısa torpaq sahəsinin sahibi Rusiyadadır, onun mülkünü saxta sənədlə başqasına satırmış".

❑ **T.ƏHMƏDLİ,**
**Musavat.com**

# Müəllimlik edən, biznes quran, nostalji yaşayan sabiqlər

## Onların əksəri vəzifədən azad edildikdən sonra "kölgəyə" çəkilir



Səlim Müslümov



Heydər Əsədov



Fazil Məmmədov



Nazim İbrahimov

**Son illərdə Azərbaycanda aparılan struktur islahatları çərçivəsində xeyli sayda yüksək vəzifə sahibi postundan olub. Xüsusilə son bir ildə həm prezident seçkilərindən öncə, həm də ondan sonra vəzifəsini itirən ondan yuxarı nazir, komitə sədri var. Onların vəzifədən çıxarılandan sonra nə işlə məşğul olduqları həmişə maraq doğurur.**

Sabiq məmurların bir qismi vəzifəni itirəndən sonra ictimai-siyasi həyatdan tamamilə uzaqlaşaraq kənara çəkilir. Onların bəziləri Azərbaycanda və xaricdə biznes fəaliyyətinə başlayır. Daha doğrusu, məmur olarkən qeyri-rəsmi rəhbərlik etdikləri biznesin başına keçirlər. Bir çoxları isə elmi fəaliyyətə keçir. Məsələn, bu günlərdə məlum oldu ki, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov müəllimliyə qayıdıb. Belə ki, əvvəllər Dövlət İqtisad Universitetində müəllimlik edən Səlim müəllim bu dəfə Milli Aviasiya Akademiyasının Dünya iqtisadiyyatı kafedrasının müdiri vəzifəsinə təyin olunub.

Prezident seçkilərindən sonra vəzifəsini itirən daha bir sabiq məmur da müəllimliklə məşğuldur. Söhbət Dövlət Gömrük Komitəsinin sabiq sədri Aydın Əliyevdən gedir. O, hazırda Bakı Dövlət Universitetinin hüquq fakültəsinin müəllimidir.

Sabiq kənd təsərrüfatı naziri Heydər Əsədovun ölkədən kənarda, konkret olaraq, Türkiyədə biznes işlərinə başladığı deyilir.

Prezident seçkilərindən bir neçə ay əvvəl vergilər naziri postundan alınan Fazil Məmmədov isə səhhəti ilə bağlı ciddi problemlər yaşamaqdadır. O, uzun müddətdən bəridir ki, Türkiyədəki "American Hastanesi"ndə müalicə alır.

Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun konkret nə işlə məşğul olduğu açıqlanmasa da, onun sosial şəbəkələrdə aktivliyi ilə seçildiyi məlumdur. Belə ki, sabiq komitə sədri tez-tez sosial şəbəkələrdə vəzifədə olduğu vaxtları əks etdirən fotoları paylaşır. Yeri gəlmişkən, bir müddət əvvəl onun qardaşı Sahib İbrahimov həbs olundu.

Dövlət Miqrasiya Xidmətinin sabiq sədri Firudin Nəbiyev barədə də ictimaiyyətə hər hansı məlumat açıqlanmır. Lakin əldə etdiyimiz məlumata görə, F.Nəbiyev də biznes fəaliyyətinə başlayıb.

Ən ciddi ittiham və səs-küylü cinayət işlərinin müşayiəti ilə vəzifədən uzaqlaşdırılan keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun isə hazırda yaxın çevrəsinin həbsi ilə bağlı proseslərə başı qarışıb.

❑ **TURQUT,**
**"Yenì Müsavat"**



## Xətai, Çörçill, Rəşidov, Lyosa - onları birləşdirən dəyər

**Xalid KAZIMLI**

**Keçmişdə padşahların, sultanların çoxu şeir yazarmış. Şeir yazmaq, indiki kimi, zəiflik, psixi qəribəlik əlaməti sayılmırmış, yüksək intellektdən, ali zövqdən xəbər verirmiş.**

Məsələn, Səfəvi hökmdarı Şah İsmayıl Xətai dövlət başçılığı və sərkərdəliyi ilə yanaşı, şairliyi ilə də məşhurdur.

Osmanlı imperatoru Sultan Süleyman Qanuninin yaxşı şeirləri qalıb. Eləcə də digər sultanların.

Çağımızda yaşayan bir çox siyasətçilərin ədəbiyyata marağı, diqqəti həvəskar səviyyədən qat-qat yuxarıda olub.

Türkiyənin ən yaxşı baş nazirlərindən biri olan Bülent Ecevetin elə gözəl şeirləri var ki, əgər o, siyasətə meyllənməsəydi, bu sahədə uğurlar qazanmasaydı və poeziyanın dalınca getsəydi, bu gün adı Cemal Süreyya, Özdəmir Asəf kimi böyük şairlərin adıyla yanaşı çəkilərdi.

20-ci əsrin siyasət dühası, ingiltərəli siyasətçi Uinston Çörçill Nobel mükafatını məhz ədəbiyyata verdiyi töhfəyə, yazdığı memuarlara görə alıb.

Sovet dövründə də bir çox tanınmış siyasətçilər həm də ədəbiyyat adamları idilər.

Özbəkistanın rəhbəri Şərəf Rəşidov tanınmış və çoxlu bədii əsərlər çap etdirmiş yazıçıydı.

Sovet dövründə bir dönəm Azərbaycan SSR Ali Sovetinin sədri şair Süleyman Rüstəm, Ali Sovetin Rəyasət Heyətinin sədri isə yazıçı Mirzə İbrahimov idi.

Yazıçı-dramaturq Şıxəli Qurbanov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji işlər üzrə katibi vəzifəsinə yüksəlmiş, respublikada sözü, iradəsi keçən üç adamdan birinə çevrilmişdi.

Axtarıb-araşdırıb bu kimi misalları çox gətirmək olar.

Söhbət ondan gedir ki, yaradıcı ziyalıların yeri həmişə başdan olub, xalq, millət həmişə şairlərə, yazıçılara böyük hörmət qoyub, onları millətin ağsaqqalı sayıb.

Ədəbiyyata siyasətin əlavəsi kimi baxan, onu ideoloji silah sayan sovet rejimi ilə yanaşı bir çox ölkələrdə də dövlət başçıları məşhur yazıçılara, şairlərə daima böyük rəğbətlə yanaşıblar.

Məsələn, qonşu İranda həm Məhəmmədrza şah Pəhləvi, həm də onu devirən ayətullah Xomeyni ustad Şəhriyara böyük hörmət qoyur, onun audensiyasında olmaq üçün saraylarından çıxıb şairin yanına gəlirdilər.

9-10 il öncə Peruda yazıçı və prezident arasındakı münasibətə dair iki ibrətamiz və maraqlı hadisə olub.

Birinci beləydi: prezident Alan Qarsia xalqın güzəranını çətinləşdirən fərmanı imzaladıqdan bir gün sonra yazıçı Mario Varqas Lyosa onu tənqid etmiş, fərmanını ləğv etməsini istəmişdi. Prezident Qarsia dərhal yazıçının sözünü nəzərə alaraq, fərmanını ləğv eləmişdi.

İkinci hadisədə isə məhz həmin yazıçının iradəsi ölkənin növbəti prezidentinin kimliyini həll edib. Lyosa Peruda böyük səs fərqi ilə seçkilərin ikinci turuna adlamış Keyko Fuximoriyə qarşı çıxıb, deyib ki, bu, Peru xalqına uzun illər zülm edən sabiq diktator Alberto Fuximorinin qızıdır və atasının komandası onu hakimiyyətə gətirərək yenidən Perunu despotizm yuvasına çevirmək istəyir.

Xalq öz yazıçısının sözünə qulaq asaraq ikinci turda xanım Fuximorinin rəqibi Kuçinskiyə səs verib. Onların arasında 0,25 faizlik səs fərqi olub. Əgər yazıçı seçkiyə müdaxilə etməsə, bitərəf qalsa, ölkə yenidən Fuximori klanının cənginə keçəcəkdi.

İndi bizdə gənc ədəbiyyat adamları "Hər yer ədəbiyyat" deyə bir kampaniya başlayıblar. Çoxları çox söz deyə bilər. Kampaniyaya qoşulmayanlar, ona qarşı çıxanlar, kampaniyanı, eləcə də ədəbiyyatı gözdən salmaq istəyənlər var, yenə də olacaqlar.

Ancaq gənc yazarlar nə deyir ki? Onlar deyir ki, insanlar kitab oxusun, maariflənsinlər, savadlı olsunlar, cahillik baş alıb getməsin.

Təcrübə göstərir ki, hansı ölkədə kitab az oxunursa, ədəbiyyata maraq azdırsa, orada cəhalət və xurafat tüğyan edir, gənclərin doğru yoldan sapması yayğınlaşır, mənəvi deqradasiya milli mövcudluğu təhdid edəcək həddə çatır və sair və ilaxır.

Gerçəkdən də hər yer ədəbiyyatdır, hər şey ədəbiyyatdır. Sabah salamlaşmasından gecə sağollaşmasına qədər hər şey. Özümüzü küçədə aparmağımız, tənhalıqdakı düşüncələrimiz, sosial şəbəkədəki yazışmalarımız, bir-birimizlə dialoqlarımız, bütün həyatımız ədəbiyyata daxildir.

Oxumaqdan, maariflənməkdən, savadlı, dünyagörüşlü, incə zövqlü olmaqdan heç kəsə ziyan gəlməyib, gəlməz də.

Unutmayaq ki, "ədəbiyyat" sözünün kökü "ədəb"dir...

## Deputat eks "baş liftçi"nin 400 milyon mənimsədiyini açıqladı

### Qüdrət Şükürovun şəriki həbs oluna bilər - sensasion gəlişmə



**Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan "Lift-Təmir" İstehsalat Birliyinin eks direktoru Qüdrət Şükürovun şəriki İlqar Ramazanov da istintaqa cəlb oluna bilər. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, İlqar Ramazanov Qüdrət Şükürovun istintaqa cəlb edildiyi cinayət yolu ilə əldə edilmiş əmlakların, pul vəsaitlərinin leqallaşdırılması ittihamı üzrə dindirilə bilər.**

Qeyd olunur ki, Qüdrət Şükürovun əmlakları, bank hesabları İlqar Ramazanov və onun ailə üzvlərinin adına keçirilib. İlqar Ramazanov "Binə" ticarət mərkəzində böyük biznesi idarə edir. Həmin biznesin də Qüdrət Şükürova məxsus olması haqda iddialar var. "Lift-Təmir"ə dövlət büdcəsindən ayrılan və mənimsənilən vəsaitlərin bir qisminin həmin ticarət nöqtəsi üzərindən leqallaşdırıldığı haqda da xəbərlər dolaşır. İlqar Ramazanovun istintaqa cəlb olunması büdcədən oğurlanan pulların necə leqallaşdırılması haqda aydın təsəvvürlər əldə etməyə imkan verə bilər. Bu isə istintaqın daha da dərinləşməsi və əhatəli şəkildə araşdırılması deməkdir.

Baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev oktyabrın 9-da keçirdiyi toplantıda deyib ki, Qüdrət Şükürovun barəsində Cinayət Məcəlləsinin 193-1 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) maddəsi ilə əlavə cinayət işi başlanıb. Hazırda istintaq tədbirləri davam etdirilir. Bundan başqa, "Lift-Təmir" İstehsalat Birliyində baş verən qanunsuzluqlarla bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə və ya israf etmə - xüsusi ilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanılıb. Q.Şükürovun adı ABŞ-ın Xarici Korrupsiyaya qarşı Mübarizə Aktını pozulması ilə müşayiət olunan korrupsiya cinayətində keçir. Bu il sentyabrın 15-də ABŞ-ın Qiymətli Kağızlar Komitəsi (SEC) "United Technologies Corporation" şirkətini 13 milyon 400 min dollar cərimələyib. Buna səbəb şirkətin törəmə müəssisəsi olan "Otis Elevator Co." lift istehsalı şirkəti tərəfindən Bakı "Lift-Təmir" İstehsalat Birliyinə (SEC-in sənədlərində bu müəssisənin adı "Liftremont" kimi gedir) rüşvət verilməsidir. ABŞ-da başlanan araşdırmaların Bakıda davam etdiriləcəyi də istisna olunmur. Q.Şükürovun barəsində Cinayət Məcəlləsinin 193-1 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) maddəsi ilə əlavə cinayət işinin başlanması da təsadüfi deyil. İstintaqçılar hazırda Qüdrət Şükürovun keçmiş qudası Rəfael Əsgərovu şahid qismində dindirir. Bu haqda "Yeni Müsavat"a istintaqa yaxın mənbələrdən daxil olan məlumatda deyilir ki, R. Əsgərovun dindirilməsi Q.Şükürovun "Lift-Təmir"ə ayrılan büdcə vəsaitlərinin hansı banklardan, nə vaxt, hansı miqdarda çıxarıb hara aparması, hansı əmlakların alınmasına yönəltməsi haqda dolğun məlumatların protokollaşdırılmasına imkan yaradıb.

R.Əsgərov Q.Şükürovun "otkat"ları haradan, hansı yollarla alması haqda da bilgilərə malikdir. ABŞ-da bu qalmaqallı korrupsiya işi ilə bağlı araşdırmalardan xəbər tutunca böyük korrupsiya cinayəti ilə bağlı şahid qismində ifadə vermək üçün olduqca ciddi addımlar atıb. 2 həftə əvvəl o, ABŞ-ın ölkəmizdəki səfirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə və baş prokurora sensasion məktub ünvanlayıb. O, şahid qismində ifadə vermək üçün Azərbaycan hüquq-mühafizə orqanları ilə yanaşı ABŞ-ın müvafiq dövlət qurumlarına da bildiyi və şahidi olduğu böyük korrupsiya qalmaqalı ilə bağlı məlumat verməyə hazır olduğunu bəyan edib. Bundan sonra "Lift-Təmir"də yol verilmiş qanun pozuntuları ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb. Zakir Qaralovun təqdimatı əsasında Q.Şükürov işdən qovulub. Eyni zamanda Baş Prokurorluğun istintaq qrupu "Lift-Təmir" İstehsalat Birliyində müvafiq yoxlamalara başlayıb. Belə xəbərlər var ki, işdən qovulandan sonra Q.Şükürov yaşadığı ünvanı tərk etməmək haqda xəbərdar edilib, ondan iltizam alınıb. Ötən sayımızda Q.Şükürovun mal-mülklərini Azərbaycan vətəndaşları İlqar, Aynur, Xuraman, Gumaş Ramazanovların adına keçirməsi haqda məlumatları da bölüşmüşdük. Şükürovla Ramazanovun toy-nişan məclislərində, ad günlərində də birgə görünmələri və tez-tez əlaqə saxlamalarının biznes münasibətlərinə söykəndiyi qeyd olunur.

**Deputat Aqil Abbas Qüdrət Şükürovun mənimsədiyi məbləğ haqda olduqca ilginc açıqlama verib. Deputat big.az-a deyib ki, Qüdrət Şükürov işdən çıxarılandan sonra yol verdiyi qanun pozuntuları araşdırılır:**

"Deyilənə görə, 400 milyon yeyinti var. Maliyyə Nazirliyi deyilən bir qurum var. Həmin nazirlik ildə ən azı iki dəfə Prezident Aparatından tutmuş bütün dövlət, özəl şirkətləri, hətta uşaq bağçasına qədər bütün qurumları yoxlayır. Bu gün ağıllarına gəlib ki, o, nə qədər pul yeyib? Əvvəllər onun nə qədər qanun pozuntusuna yol verdiyini görməyiblər? Görməyiblərsə, ya müfəttişlər savadsızdır, ya da nəyinsə qarşılığında göz yumublar. Məncə, əsas məsələ Maliyyə Nazirliyinin bu qədər qanun pozuntusunu görməməzliyidir".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Prezident İlham Əliyevin 2018-ci ilin 9 ayının yekunlarına həsr olunmuş hökumət müşavirəsindəki çıxışı bir sıra mühüm nəticələr çıxarmağa imkan verir. Bu nəticələrdən ən əsası prezidentin nitqində müxtəlif sahələr üzrə sərt tənqidi notların üstünlük təşkil etməsidir. Dövlət başçısı hansı sahələri tənqid edi:**



# Məmur oliqarxiyasının sonu yaxınlaşır - prezidentdən mühüm və sərt ismarışlar

## Dövlət başçısı sonuncu müşavirədə problemli nöqtələri və görüləcək tədbirləri açıqladı; İlham Əliyevin çıxışından görünür ki, o, komandasında ciddi islahatları davam etdirəcək, vergi, gömrük və başqa vacib sahələrdə şəffaflığın təmin edilməsini həyata keçirəcək

**Vergi-gömrük sistemində şəffaflıq məsələləri, ən əsası isə kölgə iqtisadiyyatı:** "Vergi orqanlarında da ciddi struktur islahatları aparılır. Bu barədə nazir məlumat verdi. Mən qeyd etməliyəm ki, bizim əsas vəzifəmiz kölgə iqtisadiyyatının aradan qaldırılmasıdır. Düzdür, heç bir ölkədə buna 100 faiz nail olunmayıb, hər bir ölkədə kölgə iqtisadiyyatı var, amma bunun dərəcəsi var. Azərbaycanda kölgə iqtisadiyyatının kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki illərdə kütləvi xarakter daşıyırdı. Bu, əlbəttə, imkan vermirdi ki, biz öz potensialımızı tam gücü ilə işə salaq. Bu gün bu hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkarlar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq. Bütün müvafiq qurumlara göstəriş verildi, ilk növbədə, Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, o cümlədən sahibkarlar bu sahədə öz dəstəyini verməlidirlər. Dəstək verməyən isə cəzalandırılacaq".

Hər kəsə məlumdur ki, Azərbaycanda kölgə iqtisadiyyatının yüksək təşəkkül tapmasında məmur oliqarxiyasının rolu böyükdür. Məhz ayrı-ayrı məmurlara bağlı olan şirkətlər bir zaman idxalı demək olar ki, tam inhisara almışdılar: idxal olunan məhsulun böyük hissəsi qeydiyyatdan yayındırılırdı, qeydiyyata alınan da dəyərindən qat-qat aşağı qiymətə rəsmiləşdirilirdi. Prezidentin nəzarəti ilə 2016-cı ildən başlayaraq idxal sahəsindəki inhisarçılıq ən azı yarıbayarı azaldıldı. Nəticədə, idxal statistikası daha real rəqəmlərlə ifadə olunmağa, eyni zamanda gömrük gəlirləri artmağa başladı.

Bundan əlavə, daxildə istehsal, satış həcmləri qeydiyyatdan yayındırılır. Bu isə ölkədə vergitutma bazasının kiçilməsinə, büdcəyə çatacaq yüz milyonlarla manat vəsaitlərin ayrı-ayrı məmurların cibinə axmasına səbəb olur. Bəzi məlumatlara görə, Azərbaycanda elə böyük şirkətlər var ki, uzun illər boyu vergi orqanları onların qapısından içəri belə buraxılmayıb. Prezidentin çıxışından aydın görünür ki, ölkə rəhbərliyi bu barədə məlumatlandırılıb və bu kimi hallara qarşı kəskin mübarizə başladılıb, vergilər nazirinə bütün zəruri səlahiyyətlər verilib.



**Son illərdə kölgə iqtisadiyyatının çiçəkləndiyi tikinti, ticarət-iaşə sahəsində qeydiyyatdan yayınmalara qarşı mübarizə tədbirləri də gücləndirilir. Xüsusilə yüksək səviyyəli məmurların himayəsində olan tikinti sektoru ciddi nəzarətə götürülüb, vaxtaşırı monitorinqlər aparılır, qeydiyyatsız işçi işlədənlər ciddi cəzalandırılır. Təsadüfi deyil ki, prezident çıxışında məhz bu məqama xüsusi diqqət yetirib:** "Uçot sisteminin yaradılması prioritet məsələlərdən biridir. Mən əvvəlki illərdə də bu məsələni dəfələrlə qoymuşdum. Ancaq əfsuslar olsun ki, biz müəyyən səbəblərə görə uçot sisteminin yaradılmasına çata bilməmişik. İndi bu sistem yaradılır. Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün də praktiki addımlar atılır. Hesab edirəm ki, biz doqquz ayda vergilərin bu səviyyədə toplanmasına, - nəzərə alsaq ki, əvvəlki illərdə bu sahədə çox böyük pozuntular olub, - vergi orqanlarının çox fəal və məqsədyönlü fəaliyyəti nəticəsində nail ola bilmişik".

**Dövlət başçısı kölgə iqtisadiyyatının leqallaşmasında ən əsas rolu oynayacaq iki sahəni xüsusi vurğulayıb:** "Şəffaflıq vergi və gömrük orqanlarında tam təmin edilməlidir, struktur islahatları davam etdirilməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizə aparılır və aparılacaqdır. Bu kompleks tədbirlər biznes mühitinin yaxşılaşdırılmasına öz dəstəyini verəcək. Sağlam rəqabətin təmin edilməsi üçün indi şərait yaradılır. İnhisarçılığa qarşı mübarizə çox ciddi xarakter alıbdır. Bir daha demək istəyirəm ki, bütün aidiyyəti qurumlar, özəl və dövlət şirkətləri mənim sözlərimdən nəticə çıxarsınlar. Vergi və gömrük sistemləri Azərbaycanda şəffaflığın nümunəsi olmalıdır. Mən göstəriş vermişəm ki, bu sahədə Avropanın aparıcı dövlətlərinin təcrübəsi Azərbaycanda tam tətbiq edilməlidir. Bu istiqamətdə işlər gedir".

**Prezidentin çıxışında məmur oliqarxiyasının nəzarətində olan digər sahələr də tənqid olunub. Məsələn, ölkə rəhbəri şərabçılıq sahəsindəki maxinasiyaları sərt tənqid edib:** "Azərbaycanda üzümçülüyün çox böyük ənənələri vardır. Biz bu ənənələri bərpa edirik və eyni zamanda bu gün dünyanın ən qabaqcıl texnologiyalarını cəlb edirik. Təsadüfi deyil ki, ixracımız artır. İndi Azərbaycan şərab evlərini açmağa başlayıb. Artıq bir neçə ölkədə şərab evləri fəaliyyətə başlayır. Bizim şərabımıza böyük maraq var. Biz şərabçılıqla bağlı olan bütün məsələləri çox ciddi təhlil etmişik. Bir çox boşluqlar var idi - həm istehsalatda, həm uçotda, həm də aksiz markalarının yapışdırılmasında. Sanki kimsə bu boşluqları qəsdən edirdi ki, orada qeyri-şəffaf vəziyyət yaradılsın. Mən buna başqa bir izahat verə bilmərəm. Çünki o qədər çətin olmayan, yəni, böyük intellektual potensial tələb etməyən məsələlər var və elə bil onlar qəsdən edilib qatmaqarışıq salınsın ki, burada həm vergilərdən yayınsınlar, həm də qanunsuz istehsalla məşğul olsunlar. Şərab əvəzinə araq istehsal olunurdu. Məsələ çox ciddi araşdırılır. Bu sahədə tam şəffaflıq təmin edilməlidir. Şərab zavodlarının fəaliyyəti üçün bütün şərait yaradılıb, təki onlar təmiz işləsinlər. Əgər yenə məhsulları gizlədəcəklərsə, uçota düşməyən məhsulu satacaqlarsa, onlar çox ciddi cəzalandırılacaqlar, onu bilsinlər. Burada tam şəffaflıq olmalıdır. Bu, çox gəlirli sahədir. Sadəcə olaraq, gərək sahibkarlar öz tamahlarını cilovlaya bilsinlər".

**İ.Əliyevin diqqət yetirdiyi və uzun illərdir hər kəsi narahat edən digər məsələ qanunsuz tikililərdir:** "Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz. Bu məsələ ilə bağlı mən əvvəllər də fikirlərimi bildirmişəm. Bu gün deyə bilərəm ki, artıq bu məsələ öz həllini tapıb. Çünki əvvəlki dövrlərdə təqsiri bələdiyyələr rayon icra hakimiyyətlərinin, rayon icra hakimiyyətləri Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyəti bələdiyyələrin, yəni bir-birinin üstünə atırdılar. Amma əslində hamısı əlbir idilər. Çünki qanunsuz tikililərdən böyük qazanc əldə edirdilər. Buna son qoyulub, artıq sərəncam imzalanıb. Yəni bu qaydanı pozan cinayət məsuliyyətinə cəlb ediləcək və qanunsuz tikilən binalar dərhal söküləcək.

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və kiminsə tamahı naminə biz şəhərimizi eybəcər hala sala bilmərik. Şəhərsalma qaydaları var, mərtəbələrin yerə görə hündürlüyü var. Hava axınının müvafiq qaydaları var. Bizdə isə bu, pozulurdu. Elə bil ki, böyük bir sədd tikirdilər. Havanın keçməsi üçün heç bir imkan qalmırdı, həyətlərdə ağacları qırıb binalar tikirdilər. Yerli orqanlar buna həm göz yumurdular, həm də yəqin ki, əlbir idilər. İndi buna son qoyulub. Mən bunu bildirmək istəyirəm. Vətəndaşlara da mən müraciət etmək istəyirəm, ilk növbədə, təşəkkürümü bildirmək istəyirəm. Çünki bir çox hallarda vətəndaşların fəallığı nəticəsində o tamahkar adamlar istədiklərinə nail ola bilməmişlər. Çünki vətəndaşlar dururdular, keşik çəkirdilər, qoymurdular, xəbər verirdilər və onların fəallığını mən alqışlayıram. Dəfələrlə demişəm ki, ictimai nəzarət güclü olmalıdır, artıq biz bunu görürük. Ona görə bir daha vətəndaşlara müraciət edirəm. Əgər haradasa görsələr ki, qanunsuz nəsə tikilir, dərhal məlumat versinlər, ilk növbədə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Prezident Administrasiyasına. Bu sahədə də qayda-qanun yaradılır".

Göründüyü kimi, ölkə rəhbərliyi iqtisadiyyatın inkişafına, bu sahədə şəffaflığın yaradılmasına mane olan əsas səbəb - məmur oliqarxiyası barədə tam məlumatlıdır. Prezidentin son dövrlərdəki çıxışlarında ayrı-ayrı qrupların nəzarətində olan sahələrdəki vəziyyətin sərt tənqidi, ardınca əməli addımların atılması göstərir ki, illər boyu hakimiyyətdə və iqtisadiyyatda kök salmış məmur oliqarxiyasının sonu yaxınlaşır. Aprel ayında prezident seçkilərindən sonrakı təyinatlar da bilavasitə buna hesablanıb: strateji istiqamətlər yeni və məmur-oliqarxlara bağlı olmayan kadrlara həvalə olunub.

Əlbəttə, illər boyu iqtisadiyyatın əksər sahələrini nəzarətə götürən, hakimiyyətdə kök atan oliqarxiyanın birdən-birə tam aradan qaldırılması real və gözlənilən deyil. Lakin yürüdülən siyasət göstərir ki, tədricən də olsa bu istiqamətdə davamlı və ardıcıl iş aparılır. Əsas odur ki, ölkə rəhbərliyi bu məsələdə qətiyyətli siyasi iradə nümayiş etdirir.

❑ **TURQUT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 214 (7013) 11 oktyabr 2018

# "Bədxassəli şişlərin yaranmasının başında siqaret gəlir" - Onkoloji Klinikanın baş həkimi

## **Nəsimi Qasımov:** "Ürək qan-damar sistemi xəstəlikləri və beyin qan damarlarının xəstəliklərindən baş verən ölüm halları 50 faizdirsə, xərçəngdən ölüm halları 17 faizdir"

**Son vaxtlar insanların kabusuna çevrilən və hər kəsi qorxu içində yaşamağa vadar edən xərçəng xəstəliyi sanki bir epidemiya kimi yayılmaqda və getdikcə gəncləşməkdədir. Hər kəs bir gün həyatını və ya ailə üzvünü, yaxın qohumunu bu xəstəlikdən itirəcəyi düşüncəsi ilə yaşayır.**

*"Yeni Müsavat" bu xəstəliklə bağlı Azərbaycan Tibb Universitetinin (ATU) Onkoloji Klinikasının baş həkimi Nəsimi Qasımovla müsahibəni təqdim edir.*



***- Nəsimi müəllim, xərçəng xəstəliyinin son vaxtlar sürətlə yayılması ilə cəmiyyətdə bir xof yaranıb və sağlam insanlar qorxu içində yaşayırlar. Bu xofun, qorxunun səbəbi nədir? Xərçəng bütün hallarda ölüməmi aparır?***

- Dünyada və Azərbaycanda bədxassəli şiş xəstəliklərinin yayılması və ondan ölüm hallarının artmasından danışarkən gərək ilk növbədə ölkəmizdə ən çox ölümlə nəticələnən əsas xəstəliyə də diqqət çəkək. Hazırda ölkəmizdə də, dünyada da ən geniş yayılan xəstəlik ürək-qan damar sistemi xəstəlikləri və beyin qan damarlarının xəstəliklərindən baş verən ölüm hallarıdır. Bizim ölkədə bu səbəbdən olan ölümlər az qala əhali arasında ölüm hallarının yarısını təşkil edir: orta hesabla 47-49 faiz, bəzi hallarda isə 50 faizə qədər çatır. Ölüm halları çox olsa da, ürək xəstəliklərinin istər aşkarlanmasında, istərsə də müalicəsində səhiyyəmiz sıçrayışla irəliləyib. MDB ölkələrindən, Baltikyanı ölkələri çıxmaq şərtilə, bəlkə də bu sahədə ən yaxşı tibb məhz bizim ölkədədir. Nəinki Bakıda, hətta bölgələrimizdə də ürək tutmaları ilə gələn şəxslərin təcili anjuqrafiyasını edirlər, lazım olarsa stend qoyurlar və ölümün qarşısını alırlar. Lakin buna baxmayaraq qəfləti ölüm səbəbləri arasında ürək xəstəliyi və beyin qan damarları xəstəlikləri öndə gedir. İkinci yerdə bundan az qala 3 dəfə az olan, ölüm səbəblərinin 17 faizini təşkil edən bədxassəli şiş xəstəlikləri dayanır.

***- Bəs niyə əhali ürək xəstəliklərindən bu qədər qorxmur, ancaq bədxassəli şiş xəstəliklərini eşidəndə bu qədər gərginlik keçirir?***

- Səbəb odur ki, ürək xəstəliyi olanlar qəfil ölümlə dünyadan gedir, ya da təcili xəstəxanaya çatdırılır və həkim müdaxiləsi ilə sağalırlar. Ancaq bədxassəli şiş xəstəliklərinə tutulanda, bunun qəfil ölümü olmur. Bu xəstəlik bir müddət gedir və bu xəstələr arasında ölüm halları başlayır. Biz onkoloqlar olaraq adətən beşillik yaşayışa çatmış xəstələrə kifayət qədər yardım etdiyimizi bildiririk. Ancaq bir çox xəstələr də var ki, hətta 10,15, bəzən 20 il yaşayırlar. Mənim bir xəstəm bədxassəli şişdən sonra 36 il yaşamışdı. Əhalinin bu xəstəlikdən bu qədər qorxmasının səbəbi bəlkə də həkimlərin çox vaxt pessimist məlumatlar verməsindən asılıdır.

***- Xərçəng xəstəliyinin hansı növləri ölkəmizdə daha çox yayılıb?***

- Bədxassəli şiş xəstəlikləri ilbeil artır. Hətta bəzi növləri, məsələn, süd vəzi xərçəngi son 20 ildə iki dəfə artıb. 2017-ci il üzrə qadınlar arasında süd vəzi xərçənginə tutulanların sayı 1967 nəfər olub. İkinci yerdə ağciyər xərçəngi gəlir - 1304 nəfər. Ağciyər xərçəngi həm kişilərdə, həm qadınlarda olur, lakin süd vəzi xərçəngi yalnız qadınlarda olur. Bu xəstəliklərin ölkəmizdə sürətlə yayılması həqiqətən təşviş doğurur. 20 il öncə bu rəqəm 600 idi, 3 dəfə artıb. Həmçinin yaş etibarilə də cavanlaşıb. Əvvəl deyirdik ki, 40 yaşından sonra bədxassəli şiş xəstəlikləri artır, 10 il əvvəl isə artıq bu rəqəm 35-ə düşdü. Amerikalıların böyük bir tədqiqatı var və ona əsasən artıq 2017-ci ildən 30 yaşdan sonra insanlarda bədxassəli şiş xəstəliklərinə rast gəlinməsi məsələsinə baxılır.

**"Əvvəl deyirdik ki, 40 yaşından sonra bədxassəli şiş xəstəlikləri artır, 10 il əvvəl isə artıq bu rəqəm 35-ə düşdü. 2017-ci ildən artıq 30 yaşdan sonra insanlarda bədxassəli şiş xəstəliklərinə rast gəlinməsi məsələsinə baxılır"**

***- Nəsimi müəllim, xəstəliyin bu cür artmasında, gəncləşməsində hansı amillər rol oynayır?***

- Bizə Moskvada dərs demiş və sovet onkologiya elminin banisi sayılan Nikolay Nikolayeviç Bloxinin ötən əsrin 80-ci illərində bu xəstəliyə həsr olunmuş bir mühazirəsi bu cümlə ilə başlayırdı ki, XX əsrin sonu, XXI əsrin əvvəlində hər kəs öz xərçənginə qədər yaşamalıdır. Yəni insan ömrü o qədər artmalıdır ki, nəhayətində o, bədxassəli şişə tutulmalıdır. Bəli, həqiqətən də onkoloji xəstəliklər artır. Amerikalılar bayaq qeyd etdiyim tədqiqatlarında onillərlə araşdırma apardıqdan sonra bu nəticəyə gəliblər ki, bədxassəli şişlərin əmələ gəlməsinin 42 faizi, ölümün isə 50 faizi risk faktorlarından asılıdır. Digər 50 faizi isə orqanizm doğulduğu gündən gələcəkdə bədxasssəli şişlərin əmələ gəlməsinə səbəb olacaq hüceyrələrin vəziyyətindən asılıdır. Bu, hələ bədxassəli şişə keçməyib, ancaq orqanizmdə baş verən çox mürəkkəb mutasiya hadisələrindən sonra keçə bilər.

***- Bəs bu xəstəliyin yaranmasına səbəb olan amillər hansılardı?***

- Bədxassəli şiş xəstəliklərinin artmasında rol oynayan risk faktorları bunlardır: Birincisi, siqaret çəkmək - orqanizmdə bədxassəli şişlərin yaranmasında siqaretin böyük rolu var. Siqaret çəkməyin isə iki forması var, aktiv siqaret çəkənlər və passiv çəkənlər. Aktiv siqaret çəkənlər birbaşa siqaret tüstüsünün tərkibində olan kanserogen maddəni də qəbul etmiş olurlar. Bu maddə ağız boşluğunda, qida borusunda, mədədə, bağırsaqlarda, qaraciyərdə onkoloji xəstəliklərin yaranmasına səbəb olur. Həmçinin passiv siqaret çəkənlərdə, yəni kənardan onun tüstüsünə məruz qalanlarda ağciyərdə və yuxarı tənəffüs yollarında bədxassəli şişlər meydana gələ bilər. Məhz buna görədir ki, hələ 1975-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı qərar qəbul etdi ki, dünyada siqaretlə mübarizə aparılsın. Bu mübarizəyə əksər ölkələr qoşuldu, bizdə isə bu mübarizə getmədi. Yalnız son illər parlamentdə qəbul edilən qanunlarda siqaretlə bağlı dəyişiklik edilib, cərimələr müəyyənləşib.

İkinci risk faktoru artıq bədən çəkisidir. Bu da bir neçə amildən asılıdır - alkoqoldan, çox yeməkdən, düzgün qidalanmamaqdan, aktivliyin olmamasından və sair. Artıq çəki qadınlarda süd vəzi və uşaqlıq cismində, eləcə də digər orqanlarda bədxassəli şiş xəstəliklərinin əmələ gəlməsində əsas rol oynayır.

Üçüncü risk faktoru spirtli içkilərin qəbuludur. Düzdür, bu o qədər də geniş yayılmayıb, söhbət hər gün qəbul olunan içkidən gedir. Yoxsa vaxtaşırı az miqdarda içilən içkinin elə bir ziyanı yoxdur.

***- Dünya alimləri qırmızı ətin də insan orqanizmində bədxassəli şişlərin yaranmasına səbəb olduğu ilə bağlı iddialar irəli sürür. Bu nə dərəcədə doğrudur?***

- Bəli, belə bir yanaşma var. Ət məhsullarının, heyvani yağların həddindən artıq çox qəbulu bədxassəli şiş xəstəliklərinin əmələ gəlməsində böyük rol oynayır. Bununla yanaşı, yenidən işlənərək satışa buraxılan ət məhsulları var. Bunlar hisə verilmiş ətlər, istiotlanmış ətlər, hisə verilmiş balıqlar, kiçik hisə verilmiş balıqlardır. Ancaq bir şeyi də unutmaq olmaz ki, bəzi zülallar yalnız qırmızı ətdə mövcuddur. Bədxassəli şiş xəstəliklərinin əmələ gəlməsi deyərkən söhbət ətin qəbulundan getmir, onun hazırlanması qaydasından və həddindən artıq çox istifadəsindən gedir. Əti yağda həddindən artıq qızartdıqda da kanserogen maddələr yaranır. Qızarmış ətdə xoşagələn qoxu gələn kimi orada aromatik karbohidrogen yaranır və bu o dəqiqə bədxassəli şişə çevrilmir, sadəcə, risk faktorudur.

***- Düzgün qidalanmamaq da risk faktoru hesab edilirmi?***

- Bəli, insanlar meyvədən və tərəvəzdən az istifadə edirlər. Ən ucuz məhsul meyvə və tərəvəzdir. Hazırda xərçəngə qarşı mübarizə üçün ən yaxşı vasitə "smirinka" alması hesab edilir. Onun 1 kiloqramı 50 qəpikdir. Gündə iki alma yemək heç kim üçün problem olmamalıdır. Yaşıl bazarda 10 ədəd göyərti 1 manatdır, bundan gün ərzində bütün yemək öyünlərdə istifadə etmək çox faydalı olar.

***- Bəs son texnoloji nailiyyətlərin, əlimizdən düşməyən mobil telefonların, kompüterlərin, internetin orqanizmdə bədxassəli şişlərin yaranmasında rolu varmı?***

- Müasir texnologiyaların zərəri sübut olunmuş və olunmamamış variantları var. O yerdə ki, radioaktiv şüalanma var, təbii ki, bədxassəli şişlərin əmələ gəlməsində müəyyən qədər rol oynayır. Ona görə də bütün dünyada radioaktiv maddələrin tullantısı üçün xüsusi qəbiristanlıqlar var. Tez-tez mətbuatda da çıxır ki, bədxah qonşularımız xaricdən pul alaraq bu tullantıları Dağlıq Qarabağda basdırırlar. Bu, gələcəkdə bizə də fəlakət ola bilər. Xoşbəxtlikdən bizim ölkədə radioaktiv maddədən çox istifadə olunmur. Yalnız müalicə və diaqnostikada bunlar tətbiq olunur.

Lakin vay-fay, mobil telefon və digər texnoloji avadanlıqların bədxassəli şişlərin yaranmasında rol oynaması haqqında söz demək doğru olmaz. Bədxassəli şiş xəstəlikləri əsasən 40 yaşından sonra əmələ gəlir və risk faktoru nədirsə, orqanizm onunla uzun müddət, yəni 20-25 il təmasda olmalıdır. İnternet və müasir telefonlardan istifadə müddəti hələ 20 ilə çatmadığından, o cümlədən bu istiqamətdə məqsədyönlü tədqiqat aparmadan bunu demək çətindir. Digər tərəfdən, hazırda telefon və internetdən istifadə etməyən insan yoxdur. Əvvəllər kompüter ekranları köhnə televizorlara bənzəyirdi və orada şüalanma var idi. Ancaq müasir ekranlarda bu şüalanma qat-qat aşağıdır.

***- Əhali arasında xərçəng xəstəliyinin profilaktikası necə aparılmalıdır ki, bu tendensiya bir qədər zəifləsin?***

- Bu xəstəliyin profilaktikası 3 mərhələdə aparılır: birincili profilaktika, ikincili və üçüncülü profilaktika. Birincili profilaktika dövlətin və hökumətin apardığı işdir. Hökumət elə qanunlar qəbul edib, elə qaydalar qoymalıdır ki, xərçəng xəstəliyinin yaranmasında rol oynayan risk faktorlarının kökü kəsilsin. Bakının mərkəzinə əvvəllər "qara şəhər" deyirdilər. Çünki neft istehsalı, şifer istehsalı və sair ətrafa kanserogen maddələr buraxan zavodlar var idi. Dövlət qərar qəbul etdi və bu zavodlar insanların az yaşadığı yerlərə köçürüldü. İkinci tərəfdən, cənab prezident sərəncam imzaladı və bütün böyük şəhərlərdə azbest şiferlər dəyişdirildi, istifadəsi dayandırıldı. Artıq çoxdan sübut olunub ki, azbest kanserogen maddədir. Ancaq hələ də insanlar bu şiferlərdən alıb fərdi yaşayış evlərinin damına vururlar. Dünyada azbestin bədxassəli şiş əmələ gətirməsi artıq qəbul olunub və bizdə də hökumətin imkanı olduqca vəsait ayırır ki, binalarda şiferlər dəyişdirilir.

İkincili profilaktika isə xəstəliyin erkən aşkar olunmasıdır. Bu da hökumətin qarşısında duran problemdir. Çünki hökumət maarifləndirmə ilə və öz tibb personalını işə qoşmaqla erkən aşkarolunma istiqamətində iş aparmalıdır. Sığorta təbabəti bu istiqamətdə mühüm rol oynaya bilər. Ölkəmizdə də artıq tibbi sığorta ilə bağlı pilot layihələrə başlanılıb. Erkən aşkar olunan bədxassəli şişin müalicəsinə xərclənən vəsait, ikinci, üçüncü fazasında aşkar olunan xəstəliyin müalicəsindən 3 dəfə ucuz olur. Gecikmiş xəstəliyin müalicəsi isə bundan 5-6 dəfə baha olur. O baxımdan 35-40 yaşına çatmış insanlar ildə 1 dəfə gedib müxtəlif müayinələrdən keçməlidirlər. Əsasən də ən çox yayılmış olan, qadınlarda süd vəzi və ginekoloji orqanların xərçəngi, kişilərdə və qadınlarda ağciyər və qaraciyər xərçəngi, kişilərdə prostat xərçəngi və sairlə bağlı müayinələr aparılmalıdır.

***- Bəzi insanlar da var ki, nə siqaret, nə də içkidən istifadə edir, düzgün qidalanır, idmanla məşğul olur, lakin buna rəğmən xərçəng xəstəliyinə tutulur. Buna səbəb nədir?***

*(davamı növbəti sayımızda)*

**Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 214 (7103) 11 oktyabr 2018

**Azərbaycanda məcburi köçkünlər üçün tikilən mənzillərlə bağlı problemlər uzun illərdir ki, davam edir. Problemlərin bir qismi mənzillərin (qəsəbələrin, fərdi evlərin, çoxmənzilli binaların) tikintisi prosesi ilə bağlıdırsa, böyük bir qismi də tikilmiş mənzillərin bölgüsü sahəsindədir. Belə ki, məcburi köçkünlər üçün tikilən mənzillərin bölgüsü illər boyu maxinasiya mənbəyi olub.**

# Köçkün evləri ilə bağlı müdhiş maxinasiya sxemi

## İki milyard manatdan yuxarı vəsaitin sərf olunduğu sahə prezidentin diqqətində



Ölkə mətbuatında çətin durumda olduğu halda mənzillə təmin olunmayan yüzlərlə məcburi köçkünün şikayəti dərc edilib. Mətbuatda həmçinin reallıqda ehtiyacı olmadan mənzil əldə edən məcburi köçkünlərlə bağlı yetərincə faktlar açıqlanıb. Bir çox hallarda isə mənzillərin hətta məcburi köçkün olmayan şəxslərə verildiyinə dair konkret faktlar açıqlansa da, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sabiq rəhbərliyi bunların heç birinə düzgün reaksiya verməyib: əksinə, məlumatı yayan mətbuat orqanları tənqid olunub, bir çox hallarda hətta araşdırma aparan jurnalistlərin qaçqınların kompakt yaşadığı yerlərə girişinə qadağa qoyulub.

Prezident seçkilərindən sonra komitənin rəhbərliyində baş verən dəyişiklik illərdən bəri bu sahədə yer alan nöqsanların gün işığına çıxmasına səbəb olub. Rövşən Rzayevin birbaşa nəzarəti altında indiyədək tikilmiş evlər üzrə araşdırmalar aparılıb, mənzil alan hər kəsin vəziyyəti analiz edilib. Məqsəd, əlbəttə, haqqı olmadan mənzil alanların aşkarlanması, sosial ədalətin bərpasıdır.

Nazirlər Kabinetinin bu ilin 9 ayının yekunlarına həsr olunmuş iclasında ölkə prezidentinin çıxışında səslənən fikirlər göstərir ki, məcburi köçkünlərin mənzil təminatı sahəsindəki bütün qanunsuzluqlar ətraflı şəkildə araşdırılır. Prezident qeyd edib ki, bu il Sumqayıt şəhərində, Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Abşeron, Tərtər, Qaradağ rayonlarında məcburi köçkünlər üçün binalar, evlər tikilir və onların sərəncamına verilir. Doqquz ayda 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunub. İlin sonuna qədər əlavə 2800 ailə evlərlə, mənzillərlə təmin ediləcək. Beləliklə, bu il 5700 ailə - təxminən 25 min insan evlərlə, mənzillərlə təmin olunacaq: "Bax, bu, görülən işlərin nəticəsidir. Belə olan halda, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq. Bundan sonra da, gələn il də bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulacaq. Amma, eyni zamanda, biz bu sahədə də çox ciddi islahatlar aparmalıyıq, uçot aparılmalıdır, şəffaflıq təmin edilməlidir. Çünki əfsuslar olsun ki, bu gün belə deyil. Bəzi hallarda köçkün olmayan vətəndaş gedib yalandan öz adını yazdırır, sonra dövlətdən mənzil alır. Belə hallar var və köçkünlər xoşagəlməz hallarla üzləşirlər. Növbə ilə bağlı məsələlər var. Yəni ədalətsizliklər aradan qaldırılmalıdır və pozuntulara yol açan boşluqlar da bağlanmalıdır. Növbədə dayanan, ən ağır vəziyyətdə yaşayan vətəndaş ilk növbədə mənzil almalıdır, belə göstəriş verilib. Mənzil ancaq köçkünə verilməlidir. Bəzi hallarda məlumat gəlir ki, köçkünlər üçün tikilmiş evlərdə başqa vətəndaşlar yaşayır. Bəzi hallarda biləndə ki, misal üçün, ev söküləcək, yeni evə köçürüləcəklər, yerli icra orqanları, digər qurumlar gedib oraya pul müqabilində köçkün olmayan adamların adlarını yazdırırlar. Bu, ən böyük vicdansızlıqdır. Köçkünlərin vəziyyətindən istifadə edib əsassız imtiyaz, gəlir əldə etmək ən böyük günahdır, vicdansızlıqdır. Bunu edənlərin vicdanı, imanı yoxdur. Ona görə, bunlara qarşı çox ciddi mübarizə aparılır və aparılacaq, onlar eşitsinlər. Burada çox ciddi şəffaflıq və uçot təmin edilməlidir və ediləcək".

Göründüyü kimi, prezident məcburi köçkünlərin mənzil təminatı sahəsində hansı maxinasiyalara və kim tərəfindən yol verildiyinə dair ətraflı bilgilərə malikdir. Xüsusilə rayon icra hakimiyyəti başçılarının bu məsələdən şəxsi qazanc əldə etmək məqsədilə necə yararlandıqları, hansı sxemlərdən istifadə olunduğu artıq ölkə rəhbərliyinə məlumdur. Aprel seçkilərindən sonra məcburi köçkün, həmçinin köçkünlər üçün qəsəbələrin salındığı rayonların icra hakimiyyəti başçılarının dəyişdirilməsində, görünür, bu faktın da ciddi rolu olub.

Onu da qeyd edək ki, Dövlət Neft Fondu 2001-ci ildən başlayaraq qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlərin həyata keçirilməsinə vəsait ayırır. Bu dövr ərzində Dövlət Neft Fondunun vəsaiti hesabına Ağdam, Füzuli, Biləsuvar, Goranboy, Sabirabad, Ağcabədi, Beyləqan, Qəbələ, Şəmkir, Ağstafa, İsmayıllı, İmişli, Göygöl, Bərdə, Oğuz, Şəki, Gədəbəy, Saatlı, Hacıqabul, Balakən, Qazax, Zaqatala,Tərtər rayonlarında, Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Mingəçevir, Sumqayıt, Yevlax, Şirvan şəhərlərində, Mehdiabad, Ramanı, Müşviqabad, Masazır, Pirşağı, Fatmayı və Ümid qəsəbələri ərazisində qaçqın və məcburi köçkünlər üçün hündürmərtəbəli binaların, fərdi yaşayış evlərinin, sosial-mədəni, infrastruktur və digər obyektlərin tikintisi həyata keçirilib.

**Qeyd olunan tədbirlərin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, habelə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən təqdim edilmiş sifarişləri əsasında Dövlət Neft Fondu tərəfindən adı çəkilən qurumların dövlət xəzinədarlığındakı hesablarına köçürülür və sonra sifarişçi təşkilatlar tərəfindən podratçı təşkilatlara ödənilir. Fonddan verilən məlumata görə, məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi tədbirləri ilə bağlı işlərin sifarişçisi kimi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu(MKSİF) çıxış edir:** "Sifarişçi təşkilat layihələrin icrasına cari nəzarəti həyata keçirir, müvafiq tenderlərin keçirilməsini və digər müvafiq prosedurların aparılmasını təmin edir, yerlərdə açılmış ofisləri vasitəsilə işlərin icrasını təşkil edir və əlaqələndirir".

2001-ci ildən 2018 1 iyul tarixinədək layihə üzrə tədbirlərin maliyyələşdirilməsi üçün fonddan ümumilikdə 2 milyard 187,2 milyon manat, o cümlədən 2018-ci ilin 1-ci yarımilliyi ərzində 84,5 milyon manat vəsait ayrılıb.

Baş nazirin müavini Əli Həsənovun komitəyə rəhbərlikdən uzaqlaşdırılması göstərir ki, ölkə rəhbərliyi milyardlarla manat dövlət vəsaitinin sərf olunduğu bir sahədəki problemlərin üstündən sükutla keçmək niyyətində deyil. Yuxarıda qeyd etdik ki, problemlər yalnız mənzillərin bölgüsü deyil, həm də tikintisi sahəsindədir. Yüz milyon manatlarla dəyərində tenderlər əksər hallarda qapalı keçirilib, layihələrin icrası komitənin və MKSİF-in rəhbərliyinə yaxın şirkətlərə həvalə olunub. Bir sıra jurnalist araşdırmalarında konkret faktlarla tikinti zamanı hansı fırıldaqlara əl atıldığı, mənzillərin, fərdi evlərin dəyərinin necə şişirdildiyi sübut olunsa da, Ə.Həsənov buna həmin jurnalistləri təqib etməklə cavab verib. Bir dəfə də olsun faktlarla bağlı araşdırmalar aparılıb ictimaiyyətə dəqiq məlumatlar açıqlanmayıb.

Proseslərin gedişi göstərir ki, dövlət rəhbərliyinin dəstəyini alan R.Rzayev məcburi köçkünlərin mənzil təminatı kimi milyardların dövr etdiyi bir sahədə yol verilmiş bütün qanunsuzluqların üzə çıxarılmasında qərarlıdır. Bu isə tezliklə bilavasitə tikinti prosesində təbiq olunan korrupsiya mexanizminin aydınlığa çıxarılacağı və bu məsələdə iştirakı olan bütün tərəflərin məsuliyyətə cəlb olunacağından xəbər verir. Böyük ehtimalla, bu proses sabiq komitə sədrini də əhatəsinə alacaq. Hər halda, prezidentin çıxışı göstərir ki, əldə olunan məlumatlar birbaşa onun özünə çatdırılır. O isə heç kimin cəzadan yayına bilməyəcəyini açıq mətnlə ifadə edib...

**❑ TURQUT,**
**"Yeni Müsavat"**

# Restoran sahiblərinə sərt xəbərdarlıq

## ETSN tədbirləri daha da gücləndirir; əhali bu işdə müvafiq qurumlara yardım edir



**Prezident İlham Əliyev oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir sıra əhali, ölkə üçün vacib məsələlərə toxunub. Ölkə başçısı bildirib ki, havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib:**

"Axşam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək".

Restoranların havanı tüstü ilə zəhərləmələri barədə mətbuatda da xeyli sayda yazılar dərc olunub. "Yeni Müsavat" qəzeti olaraq bu barədə restoranların ətrafında yaşayan əhalinin fikirlərini aldığımız zaman onlar durumun xeyli dərəcədə acınacaqlı olduğunu bildiriblər. Sakinlər söyləyirlər ki, restoranlar yay aylarında açıq havada məclis qurub, gecə saatlarına qədər səsgücləndiricilər vasitəsilə onları narahat etmələri ilə yanaşı, havanı da zəhərləyirlər. Onların sözlərinə görə, bununla bağlı müvafiq qurumlara dəfələrlə şikayət etmələrinə baxmayaraq, bəzi restoranlar öz fəaliyyətlərinə davam edirlər.

Məlumat üçün onu da qeyd edək ki, hələ bu ilin may ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayaraq bildirdi ki, restoran sahiblərinə tüstünün qarşısını almaq üçün müvafiq qurğuların quraşdırılması ilə bağlı məktub göndərilib. Həmin zaman qeyd olundu ki, qanunvericiliyin tələblərini pozan iaşə sahiblərinə qarşı İnzibati Xətalar Məcəlləsinin 237.2 maddəsinin müvafiq tələblərinə uyğun olaraq tədbirlər görüləcək. Ətraf mühitə buraxılan tullantıların təmizlənməsi, aparatlardan istifadə edilməməsinə görə fiziki şəxslərin 600 manatdan 25 min manata qədər, hüquqi şəxslərin isə 20-25 min manat cərimələnməsi nəzərdə tutulub.

Öyrəndik ki, restoran sahiblərinin bir qismi bu qaydalara əməl ediblər. Bəziləri isə hələ də məhəl qoymadan, öz işlərini davam etdirirlər.

Məsələ ilə bağlı ETSN-dən "Yeni Müsavat"a bildirilib ki, bu istiqamət üzrə apardıqları işlərin nəticəsində xeyli sayda restoranda müvafiq cihaz quraşdırılıb. Qeyd edilib ki, məsələ ilə bağlı oktyabrın 11-də geniş mətbuat konfransı keçiriləcək, ictimaiyyətə məlumat veriləcək. Nazirlikdən deyiblər ki, bu işdə əhali də onlara yaxından kömək edir və görülən tədbirlər də məhz insanların şikayətinə əsaslanır.

Həmçinin öyrəndik ki, hələ avqust ayında nazirlik rəsmiləri Bakının bir sıra rayonlarının icra hakimiyyətlərində restoran sahibləri ilə görüşlər də keçirib. Restoran və şadlıq evlərinin sahiblərinə bildirilib ki, atmosfer havasına atılan zərərli qazların, tüstünün və qoxunun qarşısını almaq üçün restoranların tüstü bacalarında müasir standartlara cavab verən xüsusi filtrlər quraşdırsınlar. Əks halda, restoran və şadlıq evlərinin sahibləri barəsində cərimə tədbirləri görüləcək. Bundan sonra isə daha sərt addımlar atılmaqla həmin ictimai-iaşə müəssisələrinin fəaliyyətlərinin dayandırılması ilə bağlı müvafiq qurumlara müraciətlər ediləcək. Həmin zaman qeyd olunub ki, qarşıdakı günlərdə görüşlərdə iştirak etməyən, tövsiyə və tapşırıqlara əməl etməyən, qanunvericiliyin tələblərini pozan obyekt sahibləri barədə sərt tədbirlərin görülməsinə başlanılacaq.

Xüsusi olaraq vurğulanıb ki, burada məqsəd restoran və şadlıq evlərinin sahiblərini cərimələmək deyil, problemi aradan qaldırmaqdır. Görüşün nəticəsi olaraq isə ictimai-iaşə obyektlərinin sahiblərinə təmizləyici qurğuların quraşdırılması üçün daha 15 gün əlavə vaxt verilib. Lakin nazirlik sentyabr ayında məlumat yaydı ki, 88 restoran hələ də müvafiq qurğuları quraşdırmayıb. Xüsusilə də Babək prospektində yerləşən restoranlarda vəziyyət daha da acınacaqlıdır...

Məhərrəmlik ayı ilə əlaqədar hazırda Bakıda demək olar ki, toy şənlikləri keçirilmir. Buna görə də restoranlardan qalxan tüstülər də azalıb. Babək prospektində yerləşən bir neçə restoranla da əlaqə saxlayıb, onlardan qeyd edilən qurğunu quraşdırıb-quraşdırmadıqlarını öyrənməyə çalışdıq. Əksər restoran sahibləri bildirdilər ki, ətraf mühitə tüstü buraxmırlar və müvafiq tədbirləri görürlər.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**



# Danışmağa yer yoxdur

**Zamin HACI**
zaminhaci@gmail.com

"Mən başqalarının qorxularına hörmətlə yanaşıram"
***(Pedro Almodovarın "Onunla danış" filmindən)***

**Bakı məktəblərindən birində 6-cı sinif şagirdinin dəhlizdə gözyaşardıcı qaz, ya da Anadolu türklərinin "bibər qazı" dediyi maddədən buraxdığı, 8 nəfər şagirdin zəhərlənib xəstəxanaya aparıldığını oxuduq. Hadisə yerinə polis rəisinin gəlməsi, şagirdlərin durumunun yaxşı olması, Təhsil Nazirliyinin isə valideynlərə uşaqları məktəbə yollayarkən çantalarına baxmağı məsləhət gördüyünü də bildik. Ancaq o qaz o uşağın əlinə necə keçib - bu haqda heç bir xəbər yox idi. Sanki belə olmalıymış. Nə bunu yazan bir jurnalist var idi, nə də oxumaq istəyən oxucu. Çünki oxucu ilə yazan hər hansı bir zadın iki başı kimi şeylərdir, biri olmasa o biri də olmayacaqdır. Buna hələ gələcəyik.**

Əlbəttə. Həyat şəraitimiz üzündən indi biz heç zada təəccüblənmirik. İki yaşlı uşağı zorlayıb öldürən manyakdan tutmuş təzə doğulan körpəsini 350 manata yoldan keçənə satmış "anaya" qədər. İntihar edənlər, barmaq yarasından ölənlər, düşük söyüşlərə görə bıçaqlananlar, öz ailəsindən xəbərsiz, lakin məhəllənin erkəyi olmaq iddialı, ləyaqətsiz "qeyrət" dağarcıqları və sairə və ilaxır. Cəmiyyətdə aqressiya, nifrət, qəzəb çoxalmışdır. Elə bugünlərdə mətbuatda, konkret "Yeni Müsavat"da başlıq bu cür getmişdi: "Azərbaycanlılar niyə aqressivləşib" və jurnalist həmkarımız psixoloq Azad İsazadəni danışdırıb birlikdə dərdimizə dərman aramışdılar. O yazıdakı bir cümlə mənim xüsusilə diqqətimi çəkdi. Azad bəy deyirdi: "Biz bir-birimizi dinləmək istəmirik".

İlk baxışdan haqlı yanaşmadır. Ancaq bu, səbəb deyil, məncə, nəticədir. Çünki dinlənilmək üçün insan ilk növbədə danışmağı bacarmalıdır. Misir müəllimin dibinə bomba qoyub dombalaq aşa-aşa kef çəkməyə yollandığı təhsil sisteminin bərbadlığı üzündən bu gün Azərbaycanda iki cümləni ardıcıl düzüb-qoşmağı bacarmayan nəsil yetişmişdir. Cümlə cəhənnəmə, ətrafınıza baxsanız adicə dükançıya "Zəhmət olmasa, bir kilo armud çəkin" deyə bilən adamları da barmaqla sayarsınız.

Bu, işin məişət tərəfidir. Sosial-siyasi tərəfləri isə daha dərindir. Cəmiyyətin diskussiya, dialoq məkanları, müstəviləri olmalıdır. Varmı? Qalıbmı? Təəssüf ki, bunun da cavabı mənfidir. İstənilən cəmiyyətin dərdini demək üçün, danışmaq üçün birinci ünvanı onun Kütləvi İnformasiya Vasitələridir. KİV. Qəzet. Jurnal. Televiziya. Radio. İnformasiya agentliyi. Bir dərdin, problemin olanda bunları tapırsan, danışırsan, yazırlar, çəkirlər, müzakirə açılır. Nəticədə nə olur? Aqressiya yox olur. Bizdə isə beş yüz iyirmi beş min dənə "qəzet" var, ancaq qəzet yoxdur. Dövlət qayğısı sayəsində mətbuatımız balkonu dənizə baxan binalarda uyumaqdadır. Qəzet köşklərinin, mətbuat yayımının tabutuna son mıxı bir seyid-deputatın əli ilə vurub söhbəti bağladılar. Televiziyalarda isə indi ən yaxşı halda Toppuş bacının əndirəbadi problemləri müzakirəyə çıxarılır, ən pis halda hansısa manısın baldırındakı sellülitlər. Azərbaycan deyilən ərazi bizim media aləmində öz əksini tapmır. Ta bu adamlar dərdini kimə desin? Yaxşısı, asanı bıçaq götürüb gəlini (əri, baldızı, qayınananı, uşağı, babanı, xalanı, bibini... - vəziyyətdən asılıdır) doğramaqdır.

İddia edilə bilər, indi ənənəvi mediaya ehtiyac azalıb, internet, sosial şəbəkə, nə bilim, feysbuk-vatsap-zad var. Yanlış yanaşmadır, çünki bunlar ciddi dialoq müstəvisi olan KİV-i qətiyyən əvəz etmir. İlk növbədə ona görə ki, internetdə, sosial şəbəkələrdə saxta xəbəri, yalançı dialoqu gerçəyindən seçmək olmur. Adamlar yalançı adlarla söhbətə girirsə, orada nə danışacaqsan?

Cəmiyyət üçün ikinci önəmli dialoq müstəvisi seçkilərdir. Bəli, təəccüblənməyin. Bu gün aqressivliklə bir-birini doğrayan adamların qanı həm də seçkiləri saxtalaşdıranların üzərinə sıçrayır. Çünki seçki cəmiyyət-cəmiyyət, cəmiyyət-dövlət dialoqunda mühüm həlqədir, nahaq yerə buna "səsvermə" demirlər ki? Səs verirsən, adam, nümayəndə seçirsən, o nümayəndə sənin dərdlərini yüksək kürsülərə daşıyır, 1 adam 40 min adamın sözünü deyir və sairə. Dinlənmək bax, belə olur. Yoxsa sən adamların səsini fındıq yerinə qoyma, bir dairədən qırx il eyni kriminal mordalı tipi deputatxana kreslosuna bas, sonra da cəmiyyətin aqressivləşməsi səbəbini fikirləş... Halbuki adamın öz seçdiyin olsaydı, xırda dərdlər yığılıb qar uçqununa, selə, sürüşmə zonasına çevrilməzdi. Bala-bala hər şeyi həll edərdilər, çıxıb gedərdi.




# Avropa ərazi bütövlüyümüzün yanında - siyasi dəstək və... silahlarla

## Almaniyadan örnək mövqe, Fransadan mühüm gözlənti; **rusiyalı politoloq:** "Ermənilər Bakının Parislə silah anlaşmasına mane ola bilməyəcəklər...."

**Qarabağ cəbhəsində 24 ildir atəşkəs rejimi hökm sürsə də, təbliğat meydanlarında savaş, informasiya müharibəsi bir an da dayanmayıb, davam edir. Çünki konfliktin yekun həllində beynəlxalq hüquqla yanaşı, beynəlxalq rəy də az rol oynamayacaq. Beynəlxalq rəyi isə ilk növbədə ölkənin xarici siyasətlə məşğul olan strukturları, habelə diaspor qurumları, sadəcə, xaricdəki fəal mühacirlər formalaşdırır.**

Erməni diasporunun xüsusən də Avropada, ABŞ-da və Rusiyada güclü olduğunu, üstəgəl, xristian amilini nəzərə alsaq, aydındır ki, Azərbaycan dövlət, millət və diaspora olaraq əsas gücünü məhz həmin məkanlara, ölkələrə yönəltməlidir. Söhbət ilk növbədə Dalıq Qarabağ münaqişəsinin həllinə ciddi təsir imkanları olan böyük xristian dövlətlərindən, o sırada vasitəçi xristian ölkələrindən gedir. Bura ABŞ, Fransa, Rusiya, Almaniya daxildir.

*****

Təqdiredicidir ki, bu yöndə aparılan təbliğat savaşında Azərbaycan adına uğurlar getdikcə artmaqdadır. Məsələn, bu günlərdə Almaniya parlamentinin - Bundestaqın sağçı radikal AFD fraksiyasının AFR hökumətinə "Almaniya-Ermənistan münasibətləri" mövzusunda göndərdiyi sorğu və aldığı cavab diqqətçəkiciliyi ilə seçilib (axar.az).

Belə ki, Almaniya mediası sorğuda Qarabağla bağlı bəzi sualların yer aldığını yazıb. Almaniya hökumətinin sözügedən sorğuya cavabının girişində xüsusi qeyd olunub ki, AFR "Almaniya-Ermənistan münasibətləri" dedikdə AFR-Ermənistan Respublikası arasındakı münasibətlər başa düşülməlidir. "AFR hökuməti Ermənistan silahlı qüvvələrinin nəzarətində yerləşən Dağlıq Qarabağ regionu və 7 ətraf rayonu Azərbaycanın bir hissəsi hesab edir. AFR hökuməti qondarma "Dağlıq Qarabağ Respublikasını" tanımır" - cavabda konkret olaraq bildirilib.

Hökumət sorğunun müvafiq bəndlərinə (Dağlıq Qarabağda insan hüquqlarının, mətbuat azadlığının, azlıqların vəziyyəti, orada yaşayan almanların sayı və s.) dair cavabında bu qeydinə istinad etməklə kifayətlənib. Həmçinin sorğudakı "AFR hökuməti Dağlıq Qarabağın beynəlxalq hüquqi statusunu necə qiymətləndirir" sualına hökumət "Dağlıq Qarabağ bölgəsi Azərbaycan Respublikasının ərazisinin bir hissəsidir" cavabını verib.

Göründüyü kimi, Almaniya hökuməti ərazi bütövlüyümüz məsələsində bizim yanımızda yer almaqda davam edir. Az öncə Bakıda səfərdə olan bu hökumətin başçısı kansler Angela Merkel eyni mövqeni çılpaq şəkildə dilə gətirməsə də, rəsmi Berlin beynəlxalq hüquqa sadiq dövlətdir. Bunu o, Avropa Birliyinin (AB), NATO-nun mühüm üzvü kimi postsovet məkanında (Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova) etnik-ərazi münaqişələrinə dair adı çəkilən qurumların yekun sənədlərinə səs verməklə də təsbit edib - 4 ölkənin ərazi bütövlüyünü və suverenliyini bir daha tanıyıb.

*****

Azərbaycanın AB-nin ikinci aparıcı dövləti olan Fransa ilə də əlaqələri mühüm önəm kəsb edir. Nə yaxşı ki, bu əlaqələr ermənilərin və onların Fransadakı icmasının cəhdlərinə rəğmən, ildən-ilə genişlənir. Bu ilin iyulunda prezident İlham Əliyev Parisdə səfərdə olub və fransalı həmkarı Emmanuel Makronu ölkəmizə dəvət edib.

Lakin səfərin bu həftə baş tutacağı deyilsə də, hələ ki Makronun gəlişinin dəqiq tarixi məlum deyil. Bir şey dəqiqdir ki, Fransa prezidenti Azərbaycana gələcək. Hər halda, AB üzvlərindən yeganə Fransadır ki, onun prezidentləri müntəzəm surətdə Azərbaycana baş çəkiblər. Yada salaq ki, Makronun sələfləri - eks-prezidentlər Nikola Sarkozi və Fransua Olland artıq Bakıda olublar. Heç şübhəsiz, Makron bu ənənəni pozmayacaq. Bu qənaəti gücləndirən daha bir ciddi amil var.

Məsələ ondadır ki, regionda ABŞ kimi Almaniya da fəallaşıb (Amerikanın Gürcüstanda möhkəmləndiyi sirr deyil, Ermənistandakı hakimiyyət dəyişikliyinin arxasında da ABŞ-ın durduğu deyilir). Demək, Fransa onlardan geri qalmaq istəməyəcək. Bölgənin açar ölkəsi isə məlumdur - Azərbaycan. Azərbaycana maraq isə ən əvvəl hərbi sferanı da nəzərdə tutur. Səbəbinə gələcəyik.

Təsadüfi deyil ki, ötən həftə Fransanın "La Tribune" qəzeti yazmışdı ki, Makronun Bakı səfəri zamanı ikitərəfli əməkdaşlıq və Qarabağa məsələləri müzakirə ediləcək və ola bilsin, Fransadan 400-500 milyon avro dəyərində 3 hərbi katerin alınması ilə bağlı müqavilə də imzalansın. Bundan əlavə, TANAP-TAP-ın müzakirəsi də istisna edilmirdi.

*****

"Yeni Müsavat" bu yerdə xatırladır ki, hərbi gəmilərlə bağlı tərəflər arasında ilkin anlaşma artıq əldə edilib. Ötən ay Bakıda keçirilən ADEX-2018 Beynəlxalq Müdafiə Sərgisinə ilk dəfə olaraq, Fransanın iki hərbi şirkəti də öz məhsulları ilə qatılıb və onlardan biri - "Naval Group"la ilkin anlaşma imzalanıb. Önəmlisi həm də odur ki, hərbi gəmilər bütünlüklə Bakıdakı gəmiqayırma zavodunda, Fransa şirkətinin ekspertlərinin iştirakı ilə inşa ediləcək.

"Azərbaycan onsuz da İsraildən katerlər alır. Demək, Bakı Fransa ilə əlaqələri dərinləşdirmək üçün fransız gəmiləri də alacaq. Çünki Bakının siyasəti belədir ki, hamı ilə - Qərblə də, Rusiya ilə də, digər ölkələrlə də yaxşı münasibətlər olsun ", - deyə rusiyalı hərbi ekspert Konstantin Sivkov "Moskva-Baku" portalına söyləyib.

Digər rusiyalı təhlilçi və politoloq Aleksey Fenenko isə deyib ki, Fransa-Azərbaycan anlaşması baş tutacaq və Bakı müdafiə sferasında öz müstəqilliyini daha da gücləndirəcək. **"Bütün yumurtaları eyni zənbilə qoymaq olmaz. Əvvəllər Bakı həqiqətən yalnız İsrail katerləri alırdı. Ancaq bütünlüklə İsraildən, onun ehtiyat hissələrindən və komplektlərindən asılı olmağa dəymir. Həmişə yaxşı alternativ lazımdır", - deyə ekspert vurğulayıb.**

Ekspertlərin açıqlamalarından belə görünür ki, daha Fransanı bölgədə sırf ermənipərəst kurs aparan ölkə adlandırmaq olmaz. Bu gəlişmə, əlbəttə ki, mühüm sayıla bilər - ələlxüsus da Fransanın vasitəçi olduğu Dağlıq Qarabağ məsələsindən dolayı.

**"Yəqin ki, yaxın gələcəkdə Bakı ilə Paris arasında əlaqələr daha da yaxşılaşacaq. Fransa hiss edib ki, regionu Almaniya və ABŞ-a uduzur və Güney Qafqaza qayıtmaq qərarı verib. O ayrı məsələ ki, Fransa silahdan başqa Azərbaycana nə təklif edə bilər"** - Fenenko bildirib. Onun sözlərinə görə, Bakı-Paris yaxınlaşmasında ikinci amil Qarabağ məsələsində Bakıya psixoloji dəstək xarakterli ola bilər.

**"Fransa silahları son zamanlar elə də yüksək rəqabət qabiliyyətli deyil. ABŞ, Rusiya, qismən də Böyük Britaniya və İsrail silah bazarında Fransanı sıxışdırır. Ona görə də Fransa imkanlar arayır ki, öz Hərbi Sənaye Kompleksinin əhəmiyyətli olduğunu nümayiş etdirsin. Odur ki, erməni lobbisi çətin ki, Bakının Fransa ilə silah anlaşmasına mane ola bilsin. Mətbuatda hay-küy qaldıra bilərlər. Lakin bundan o yana keçməyəcək"** - sonda politoloq əlavə edib

Bunu da xatırladaq ki, İlham Əliyevin Parisə sonuncu səfərinə 10 gün qalmış mediaya məlum olmuşdu ki, Paris ötən əsrin 90-cı illərindən Azərbaycana tətbiq elədiyi silah embarqosunu götürüb. Bu sensasion xəbər Fransanın dünənə qədər "kiçik bacı" saydığı Ermənistanda o dərəcədə təlaş doğurmuşdu ki, Fransanın işğalçı ölkədəki səfiri ertəsi gün onu təkzib eləməyə tələsdi. Yekunda isə xəbər düz çıxdı: embarqo götürülüb...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Amerikalı diplomat Bakıda mühüm görüşlər keçirdi və mətbuata ilginc açıqlamalar verdi

## Corc Kent: “Mən ABŞ rəsmisi kimi Dağlıq Qarabağa getmirəm”

**Oktyabrın 10-da ölkəmizdə səfərdə olan ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent jurnalistlər üçün brifinq keçirdi.**



**ABŞ-ın ölkəmizdəki səfirliyində baş tutan brifinqdə media mənsublarını azərbaycanca salamlayan cənab Kent ardınca bildirdi ki, yenidən Bakıya döndüyünə görə məmnundur:** “Mən son dəfə Bakıda tələbə olduğum zaman - 1987-ci ildə, yəni 31 il bundan öncə olmuşam. Əslində o vaxt tələbəlik dövründə rus dilində danışmağı bacarırdım. Ona görə üzr istəyirəm ki, sizinlə Azərbaycan dilində ünsiyyət yarada bilmirəm”. Daha sonra oktyabrın 9-10-da Azərbaycanda olan diplomat səfərin məqsədi barədə məlumat verdi. Eyni zamanda dövlət başçımızla görüşündən danışdıq: “Mənim Azərbaycana səfərimin əsas məqsədi ABŞ-Azərbaycan münasibətlərini daha da yaxşı etməkdən ibarətdir. Azərbaycan Respublikasının hökuməti, liderləri ilə görüşlər keçirdik. Bu sıraya Azərbaycan prezidenti cənab İlham Əliyev daxildir. Eyni zamanda Azərbaycan Respublikasının biznes dairələri və vətəndaş cəmiyyətinin nümayəndələri ilə də görüşümüz oldu. Düşünürəm ki, hər bir kəs ABŞ-Azərbaycan əlaqələrinin daha fəal olmasını istərdi. Deməki istəyirəm ki, ABŞ, ümumiyyətlə, daha firavan, daha təhlükəsiz və daha inkişaf etmiş Azərbaycanı görmək istərdi. Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan "Cənub Qaz Dəhlizi" enerji ehtiyat mənbələrinin şaxələndirilməsi yolu ilə enerji təhlükəsizliyini təmin edəcək".

**Cənab Kent daha sonra Cənub-Qaz dəhlizinin önəmindən bəhs etdi:** ""Cənub Qaz Dəhlizi" çox mühüm və irimiqyaslı layihədir. Bir çox şirkətlər və ölkələr layihənin reallaşması üçün milyardlarla dollar vəsait xərcləyib. 3500 km-lik həcmi olan enerji dəhlizi vasitəsilə bölgədə olan enerji ehtiyatlarının Avropaya çatdırılması təmin olunacaq. Məhz Cənub Qaz layihəsinə bənzər olan layihələr, ümumiyyətlə, dövlətlər və şirkətlər arasında əməkdaşlığın parlaq nümunəsidir".

**Amerikalı diplomat Azərbaycan hökumətinin liderləri ilə görüşlərində Azərbaycanın bölgədə təhlükəsizliyin təminatı və təhlükəsizliyin gücləndirilməsi sahəsində atdığı addımları çox yüksək dəyərləndirdiyini bildirdi:** “Bu sıraya Azərbaycan sülhməramlılarının Əfqanıstana gedişi də daxil olmaqla, Azərbaycanın Əfqanıstanda verdiyi töhfələr daxildir. Regional təhlükəsizlikdən danışarkən Azərbaycanın qonşusu olan bir neçə dövlətlərin fəaliyyətlərini də müzakirə etmişik. Sözügedən fəaliyyətlər, ümumiyyətlə, bölgədə təhlükəsizliyin gücləndirilməsinə xidmət etmir. Bu sıraya Rusiya və İran tərəfindən göstərilən fəaliyyətlər daxildir ki, nəticə etibarilə bu fəaliyyətlərə görə ABŞ sözügedən dövlətlərə sanksiyalar tətbiq edib”.

Bunun ardınca diplomat Dağlıq Qarabağ məsələsi barədə fikirlərini açıqladı. Dedi ki, Azərbaycanda hər bir şəxs Dağlıq Qarabağ münaqişəsinin dinc həll yolunun tapılmasında çox maraqlıdır. O, dövlət rəsmiləri ilə görüşlərdə Dağlıq Qarabağ probleminin həlli istiqamətində irəliləyişlərin əldə olunması, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Nyu-York görüşünün və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan baş naziri ilə Düşənbədə görüşünü də müzakirə etdiklərini vurğuladı.

“ABŞ ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biridir. Biz üzərimizə düşən fəaliyyəti və məsuliyyəti çox ciddi qəbul edirik. Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində biz Madrid prinsiplərinə əsaslanırıq. Gücdən istifadə olunmaması, eyni zamanda ərazi və suverenlik və xalqların öz müqəddəratını təyinetmə hüququ da daxil olmaqla bu problemin Madrid prinsipləri əsasında həllinin tərəfdarıyıq”.

**C.Kenton Azərbaycan Respublikası mediasının bu sahədə olan nümayəndələri ilə görüşməkdən çox məmnun olduğunu bildirərək əlavə etdi:** “Gələn dəfə Azərbaycana səfər etdiyim zaman çox ümid etmək istərdim ki, artıq AzadlıqRadiosunun nümayəndəsi burada, bu auditoriyada olacaq”. Diplomat dedi ki, media azadlığı toplaşma və söz azadlığı ilə yanaşı, cəmiyyətlərin uğurunu təmin edən amillərdən biridir.

**ABŞ diplomatı sualları cavablandırarkən dedi ki, keçirdiyi görüşlərdə demokratiya və insan haqlarına yer ayrılıb:** “Fundamental prinsiplərin təminatı, ümumiyyətlə, inkişaf etmiş cəmiyyətin daha çox inkişafda olmasına təkan verən amillərdən biridir. Düşünürəm ki, bu, inkişaf etmiş cəmiyyətlər və vətəndaşların da gələcəyi üçün çox vacib olan məsələlərdən biridir. Qeyd etdiyim kimi, mən çox ümid bəsləyərdim ki, gələn dəfə mən Azərbaycana gələndə AzadlıqRadiosunu burada dinləyə bilim”.

**Diplomat görüşlərdə təhlükəsizlik məsələlərini də müzakirə etdiklərini vurğuladı:** “Müzakirə olunan məsələlərdən biri məhz Əfqanıstana aid idi. Burada Azərbaycanın oynadığı çox vacib rolu qeyd etmişdim. Ümumiyyətlə, Azərbaycan Əfqanıstana problemlərinin həllində dəstək göstərir. Müəyyən dövlətlər var ki, enerji amilini silah kimi istifadə edirlər. Ona görə də düşünürəm ki, "Cənub Qaz Dəhlizi" kimi layihələr enerji təhlükəsizliyinə öz təminatını verir”. **3 il Ukraynada fəaliyyət göstərdiyini deyən diplomat bu ölkədə virus hücumlarının baş verdiyini xatırlatdı:** ”Rusiya tərəfindən həyata keçirilən hücum nəticəsində Ukraynanın bütün elektrik xətləri sıradan çıxarılmışdı. 2017-ci ilin iyun ayında bir həmlə də olmuşdu, onun nəticəsində bütün korporasiyalar sıradan çıxarılmışdı. Ona görə də hər zaman təhlükəsizlik barədə danışanda, sadəcə olaraq, silah, yaxud artilleriyanı nəzərdə tutmuruq. Buraya kiber təhlükəsizliyi kimi məsələlər də daxildir".

Xəzərin statusu barədə Konvensiyaya münasibət bildirən C.Kent dedi ki, danışıqlarda iştirak edən Azərbaycan rəsmiləri bu suala daha müfəssəl cavab verə bilər.

**Ermənistanın yeni rəhbərliyinin Dağlıq Qarabağla bağlı mövqeyinə ABŞ-ın münasibəti barədə danışan diplomat qeyd etdi ki, təxminən iki həftə sonra amerikalı həmsədr də daxil olmaqla, ATƏT-in Minsk Qrupunun həmsədrləri bölgəyə səfər edəcəklər:** “Azərbaycan və Ermənistan liderlərinin Düşənbədə keçirdiyi görüş öz-özlüyündə yaxşı bir siqnaldır, yaxşı bir rəmzi məna daşıyır. Bu görüşdən sonra təmas xəttində gərginliyin səviyyəsi kifayət qədər aşağı düşüb. Biz tərəflərə müraciət edərək danışıqların bu minvalla aparılmasına və atəşkəsin pozulmasının sayının aşağı düşməsinə təkan verməyə çağırırıq! Artıq sözügedən prinsiplər, eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasının qərarları əsasında həyata keçirilən bir fəaliyyət olacaq”.





### “Yeni Müsavat”ın əməkdaşının da suallarını cavablandıran ABŞ dövlət katibi köməkçisinin müavini Bakıdan işğalçı Ermənistana BMT qətnamələrini xatırlatdı

**“Yeni Müsavat”ın əməkdaşı da amerikalı diplomata sual ünvanlamaq şansından istifadə etdi. Əməkdaşımız cənab Kentə bəzi məqamları xatırlatdı. Onun Bakıda olduğu günlərdə Qarabağdakı separatçıların təmas xəttində gərginliyi artırmaq istiqamətində növbəti cəhdlər etdiyini, ABŞ-dan olan həkim briqadasının məhz bu günlərdə qanunsuz olaraq Dağlıq Qarabağa gələrək oradakı əhaliyə pulsuz tibbi yardım göstərdiyini, ABŞ-dakı küçələrdən birinə “Artsax” adının verilməsini xatırlatmaqla yanaşı, "Rusiya və İrana qarşı sanksiyaların tətbiqindən danışdınız. Bəs bölgəni təhdid edən, ərazilərimizi işğalda saxlayan Ermənistana qarşı nə zaman sanksiyalar tətbiq edəcəksiniz? Amma təəssüf ki, əksinə, bir sıra hallarda ABŞ ”humanitar" yardımı" adı altında işğalçılara və separatçılara dəstək verilir" sualına C.Kent əhatəli cavab verdi.**

**O bildirdi ki, atəşlərin və təhdidlərin sayının azaldılması çox vacibdir:** “ABŞ-ı təmsil edən rəsmilər hər bir zaman Ermənistan rəsmiləri ilə görüşən zaman eyni bəyanatı verirlər. Biz hər zaman deyirik ki, bu kimi ritorika, eyni zamanda təmas xəttində atəşkəsin pozulması halları vəziyyəti gərginləşdirir. Onu da demək istərdim ki, ABŞ konsulluqları ABŞ vətəndaşlarına Dağlıq Qarabağa səfər etməməyi tövsiyə edir. Eyni zamanda buna bənzər çağırış da var: biz Amerika vətəndaşlarını Krıma səfər etmək barədə düşünməməyə çağırırıq. Digər ərazilər də var ki, ora işğal altında olan ərazilərdir, yaxud Amerika diplomatlarının və vətəndaşlarının ora getməsi tövsiyə olunmur. Məsələn, ABŞ rəsmisi kimi mən Dağlıq Qarabağa getmirəm”.

**C.Kent “Yeni Müsavat”ın digər sualına cavab olaraq Los-Ancelos dairəsinin Qlendeyn şəhərində küçənin “Artsax” adlandırılmasına da münasibət bildirdi:** “ABŞ-da bələdiyyə rəsmiləri yerli şura kimi fəaliyyət göstərərək küçə adının dəyişdirilməsinə dair qərar çıxara bilərlər. ABŞ federal agentliklərinin Dağlıq Qarabağı necə adlandırmasına gəldikdə, mən deyə bilərəm ki, biz bu əraziyə ”Dağlıq Qarabağ” deyirik”.

**ABŞ-ın işğalçı Ermənistana sanksiyalar tətbiq etməməsinə gəldikdə, amerikalı diplomat bunları bildirdi:** “Hər bir vəziyyət fərdi yanaşmanı tələb edir. O ki qaldı Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına, biz hesab edirik ki, münaqişənin həlli BMT qətnamələri və Madrid prinsipləri əsasında baş tutmalıdır. Həmin prinsiplər isə ərazi bütövlüyünə hörmət, güc tətbiq olunmaması və xalqların öz müqəddəratını təyin etməsidir”.

**Səudiyyə Ərəbistanından olan jurnalistlə bağlı danışan diplomat “ölkəsindən asılı olmayaraq, istənilən jurnalistin təhlükəsizliyi ABŞ üçün çox vacib olan məsələlərdən biridir”, deyə bildirdi. O dedi ki, bu kimi faktlar, həmçinin bolqarıstanlı xanım jurnalistin öldürülməsi də ABŞ-ı ciddi narahat edir.**

**❑ Elşad PAŞASOY,**
**Foto: Elçin Əkbər, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 213 (7102) 11 oktyabr 2018



# Odla su arasında...

**Hüseynbala SƏLİMOV**

**Dərhal duyulur ki, hələ N.Paşinyana və onun hakimiyyətinə münasibətimizi tamamilə müəyyənləşdirməmişik: bir tərəfdən Düşənbədəki ayaqüstü söhbətdən optimist notlarla danışır, digər tərəfdən Ermənistanda növbəti diktaturanın oturuşmasından bəhs edir, üçüncü tərəfdən də bu ölkədə böhranın dərinləşməsi və vətəndaş qarşıdurması ilə əvəz oluna bilməsi ehtimalı haqqında fikir yürüdəndə sevincimizi gizlədə bilmirik.**

Əslində bunlar təbiidir, çünki Ermənistan bizim üçün düşmən ölkədi, düşməninsə pis gününə sevinmək adi haldır. Üstəlik, Nikol müəllim özü də bizə münasibətini hələ cilalayıb kristallaşdırmayıb, son günlərə - Düşənbə sammitinədək onun siyasətində daha hansı metamorfozalara təsadüf etmədik?

Gah bizə Dağlıq Qarabağdakı oyuncaq rejimlə danışmağı məsləhət gördü, gah da müharibəylə hədələdi, hətta bunun imitasiyasını belə yaratmağa çalışdı.

Düşənbədəki görüşdən razılıq etməsi təsadüfi deyil, rastlaşdığı zərurətdən yaranır: adam hakimiyyətini legitimləşdirmək əzmindədir, bunun üçünsə növbəti seçki keçirilməlidir, seçki üçün isə ilk növbədə Azərbaycan sarıdan arxayın olmalıdır, ona görə ki, Dağlıq Qarabağdakı hərbi teatra onun rəqibləri, bəlli hərbi-siyasi klan nəzarət edir və onlar istənilən anda Paşinyan üçün fors-major situasiyalar yarada bilərlər.

Ona görə də Bakı ilə birbaşa əlaqə qurmağa cəhd edir. Hətta özünü başqa bir tərəfdən də sığortalamağı unutmur: sülh haqqında çağırış etməyi, sülhdən dəm vurmağı da xanımına həvalə edib, çünki özü daim ölkəsinin müharibədən qorxmadığını, ona hazır olduğunu desə də, ermənilərə müharibə lazım deyil, küçə və meydanlarda Paşinyana dəstək verənlər də bunu heç ona görə etmir ki, yeni baş nazir onları təkrar müharibə meydanına atsın. Həm də nəinki Dağlıq Qarabağ və hətta onun ətrafında siyasi-diplomatik “torq” üçün işğal edilmiş rayonlar illərdir ki, ermənilərin nəzarətindədir, bundan artığı onlar üçün yalnız başağrısı ola bilər.

Qərəz, belə mürəkkəb fonda, min cür oyun oynaya-oynaya Paşinyan siyasi məqsədlərinə doğru gedir. Siyasi müşahidəçilər İrəvanda hökumət və parlament arasında yaranmış vəziyyəti Rusiyanın ilkin Yeltsin dövrü ilə müqayisə etsələr də düşünürük ki, bunlar tələsik mülahizələrdi - ən son proseslər göstərdi ki, yeni baş nazirin hələki yetərincə ictimai dəstəyi var və Kremldən müdaxilə olmasa Paşinyan məqsədinə çatacaqdır. Bəli, çox çətin olacaq, gəl, proses məcrasından çıxmayacaqdır.

Sətirləri yazarkən bildirilirdi ki, Paşinyan “Çiçəklənən Ermənsitan” bloku ilə anlaşma əldə edib, bu isə parlamentdə 40 mandat deməkdir. Təsadüfi deyil ki, artıq axşam saatlarında parlamentin növbəti seçkilərin dekabrda keçirilməsilə bağlı qərar qəbul etdiyi deyildi və bu, bizə təəccüblü görünmədi, çünki respublikaçıların müqaviməti suda batanın saman çöpündən yapışmasına bənzəyirdi.

Maraqlısı bilirsiniz nədir? Paşinyan da, ona dəstək verən kütlə də düşünür ki, əsas Paşinyanın legitim baş nazir olması və Dağlıq Qarabağ hərbi-siyasi klanını hakimiyyətdən uzaqlaşdırmaqdır. Amma gəlin düşünək: tutaq, N.Paşinyan artıq tam legitim baş nazirdir. Bəs sonra, bəli, sonra nə olacaq?

Nikolcan hələ də fikirləşir ki, demokratiyaya - “məxməri inqilaba”, İrəvanda və ümumiyyətlə, Ermənistanda keçirilən seçkilərə görə hədiyyə olacaq, halbuki ona cəmi bir-iki ay bundan əvvəl qandırdılar ki, hədiyyə-filan olmayacaq. Üstəlik D.Trampla bağlı da ümidləri doğrulmadı, amerikalılar onu hətta dövlət katibi səviyyəsində qəbul etmək istəmədi.

Fəqət, ümidini itirmir, fikirləşir ki, hakimiyyət Ələddinin sehrli lampası kimdir, çətini legitim və dayanaqlı hakimiyyətə yetməkdir, sonrası düzələcək. Amma əfsus...

Bu adam “iqtisadi proqramı” hazırlamaq üçün ABŞ-dan erməni əsilli iqtisadçıları dəvət etməyi planlaşdırır, halbuki hər şey çox sadədir - İrəvanın iqtisadi dirçəlişi qonşuları ilə münasibətlərindən asılıdır, onlar sahmana qoyulsa, dəyişiklik mümkündür, yox, olmasa, onda daha bir seçkini heç gözləməyə də dəyməz.

Daha ağrılısı isə budur ki, Azərbaycan da qeyri-müəyyən vəziyyətdə, odla su arasında qalıb. Hər dəfə xatırladanda ki, ermənilər ərazilərimizin çoxunu Bakıda siyasi böhranlar hökm sürən vaxtlarda işğal ediblər, bəziləri düşünürlər ki, guya biz təxribata çəkirik - kimi deyir ki, biz sülh istəyirik, başqası ərz edir ki, bütün bu proseslər zamanı İrəvanla centlmen kimi davranmalıyıq...

Amma kimsə demir ki, bizə sülh yox, torpaqlarımız lazımdır və onları qaytarmaq üçün bütün məqbul üsullardan, o cümlədən də hərbdən istifadə etməyə hazırıq.

Demirlər ki, centlmen kimi centlmenlə davranarlar - nə vaxt ermənilərdən centlmenlik gördük ki, indi durub onlara münasibətdə centlmen olaq?

Odur ki, bir növ odla su arasında qalmışıq və seziləni həm də budur ki, bir gözümüz Kremldədir.

Demirik dərhal durub vurub-yıxmaq lazımdır. Yox, gəlin, heç olmasa, öz aramızda hər şeyi adı ilə adlandıraq - deyəsən, bir azca çəkinirik axı? Bu günlərdə K.Zatulinin ardınca xeyli asıb-kəsdik. Fəqət, bir suala cavab verməmiz lazım: Kreml istəməsə Zatulinlər, Jirinovskilər danışa bilərmi?..

# Azərbaycanda terrorçuları maliyyələşdirənlərə qarşı mübarizə genişlənir - motiv

## Nəzakət Məmmədova: “Azərbaycan nə qədər ki, bu cür siyasət aparır, ölkəmizdə terror olmayacaq...”

**Azərbaycanda terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı mübarizənin əhatə dairəsi genişləndirilir. Bununla bağlı Cinayət Məcəlləsinin 214-1 (Terrorçuluğu maliyyələşdirmə) maddəsinə dəyişiklik edilir. Dəyişikliklə maddənin dispozisiyasına 219-2-ci (Dənizdə yerləşən stasionar platformaların təhlükəsizliyinə təhdid yaradan əməllər) və 270-1-ci (Aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər) maddəsi əlavə olunur.**

Bildirilib ki, layihə dənizdə yerləşən stasionar platformaların təhlükəsizliyinə və aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllərə, habelə radioaktiv materialları talamaqla və bu materiallardan istifadə edərək öldürməklə, sağlamlığa ağır zərər vurmaqla və ya əmlaka əhəmiyyətli zərər vurmaqla hədələməyə görə cinayət məsuliyyəti müəyyən etmək məqsədilə hazırlanıb. Layihə yaxın günlərdə Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılacaq.



Ekspertlər bildirirlər ki, Azərbaycanın bu kimi addımlar atması təhlükəsizliyimizin, sabitliyimizin qorunması istiqamətində görülən tədbirlərin bir parçasıdır. Məlumdur ki, dünyanın bir sıra yerlərində xoşagəlməz hadisələr baş verməkdədir. Ərəb ölkələrindəki qarşıdurmalar hələ bitməyib. İraq və Suriyada terrorun kökünü tamamilə kəsmək hələ də mümkün olmayıb. Bu ölkələrin hər biri dini və etnik zəmində ərazi bütövlüyünün pozulması təhdidi ilə üz-üzədir. Eyni zamanda bizə qonşu olan ölkələrin də ərazisində zaman-zaman terror dalğası müşahidə olunur.

**“Yeni Müsavat”a danışan ekspert Nəzakət Məmmədova bildirdi ki, Azərbaycan prezidentinin apardığı balanslı siyasət ölkəni terrorçuların hədəfindən qoruyur:** “Bəllidir ki, ən super dövlət belə, terrordan sığortalanmayıb. Yəni dövlət hərbi qüdrətindən asılı olmayaraq, terrorla hər zaman üzləşə bilər. Çünki bu elə bir fəaliyyətdir ki, onu əvvəlcədən müəyyənləşdirmək çətindir. Azərbaycanın yerləşdiyi geosiyasi mövqe, dünyada gedən proseslər ölkəmizi də terror təhlükəsi ilə üz-üzə qoyur. Doğrudur ki, ölkəmizdə sabitlik təmin olunub və hüquq-mühafizə orqanları öz işlərini yüksək səviyyədə görür. Lakin reallıq budur ki, biz terrorun hədəfi ola biləcək ölkəyik. Eyni zamanda terrorçular üçün tranzit ölkə də ola bilərik. Bizə qonşu olan üç böyük dövlət - İran, Rusiya, Türkiyə hər zaman terror aktı ilə üzləşən ölkələrdir. Mərkəzi Asiya ölkələrindən isə daha çox radikal düşüncəli insanlar çıxır. Ümumilikdə, ətrafımız ”barıt çəlləyi"ni xatırladır. Bu əhatədə tək sabit ölkə olaraq Azərbaycan qalıb. O baxımdan bizə də təhlükə var. Terrorun arxasında böyük dövlətlər dayanıb. Bu dövlətlər istədikləri ölkəni şantaj etmək üçün terrora əl atırlar. Terrorun məqsədi bir ölkənin rəhbərinin siyasi qərarlar qəbul etməsinə təzyiq və təsir göstərməkdir".

**Ekspert bildirib ki, bir zamanlar Azərbaycanda aktivləşən radikal dini qruplaşmalar artıq xeyli zəifləyib:** “Müvafiq qurumlar da radikal dini qruplaşmalarla əlaqəsi olan şəxslərə qarşı ciddi əməliyyatlar keçiriblər. Yaxın Şərqdə gərginliyin artdığı ərəfədə dünyada fəaliyyət göstərən bütün radikallar xüsusilə də Suriya ərazisinə yollandılar. Onların bir qismi öldürüldü, digər bir qismi isə onları dəstəkləyən dövlətlərin köməyi ilə Əfqanıstana evakuasiya olundu. Əfqanıstan isə İranla yaxın ərazidədir, yəni bu ölkələrdən də bizə terror təhlükəsi var. Azərbaycanda sabitliyin mövcud olmasında ölkə rəhbərinin apardığı siyasətin rolu böyükdür. Bir terror hadisəsi ölkəmizdə, əhali arasında böyük panika yarada bilər. Xatırlayaq ki, Mingəçevir hadisəsi zamanı işıqlar sönəndə insanlar necə çaşqınlıq içərisinə düşdülər və nə qədər müddət müzakirələr aparıldı. Çünki insanlar rahatlığa, sabitliyə öyrəşiblər. Bakı hər zaman rahat, əmin-aman olub. Söhbət həm də təbii fəlakətlərin olmamasından gedir. Ona görə də ölkəni terrordan qorumaq əsas məsələdir ki, dövlət də bunun öhdəsindən layiqincə gəlir. Terror dövlətlərin bir-birinə qarşı təzyiq vasitəsidir. Sadəcə olaraq, yeri gələndə bunu müxtəlif adlarla təqdim edə bilirlər. Heç bir terrorçu özbaşına böyük kamplar yaradıb, silahlar ala bilməz. Bunu hansısa güclü dövlətlər əllərində təzyiq vasitəsi formalaşdırmaq üçün edirlər. Azərbaycanın isə siyasəti elədir ki, bütün güc mərkəzləri ilə dil tapmağa çalışıb, ortaq məxrəcə gəlir. Azərbaycan hansısa güc mərkəzinin böyük marağına zidd getsə və ziddiyyət yaransa, bizə qarşı da terror edilə bilər. Hələ ki ölkə rəhbərinin siyasəti bizi qoruyur. Terrordan əziyyət çəkdiyini deyən ölkələrin özləri də terror təşkilatlarını maliyyələşdirir. Hesab edirəm ki, Azərbaycan nə qədər ki, bu cür siyasət aparır, ölkəmizdə terror olmayacaq. Terror aktları o zaman işə düşür ki, hərbi qüvvələrin tətbiqi risklidir, diplomatiya isə səmərə vermir. Ölkələr bilirlər ki, onlara qarşı terror hadisəsini hansı dövlət edib və nə üçün bu cür addım atıb. Sadəcə olaraq, ictimaiyyətə açıqlama verilən zaman daha çox terror təşkilatlarının adı hallanır”.

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövləti başçısı öz çıxışı zamanı ölkəmizin ən ciddi probleminə də ənənəvi qaydada geniş yer ayırıb və bu məsələnin iqtidar üçün prioritet məsələ olduğuna bir daha diqqət çəkib.**






# Bakıdan Qarabağla bağlı mühüm bəyanatlar

Prezident İlham Əliyev Azərbaycanın ən ciddi problemi ilə bağlı rəsmi Bakının güzəştsiz siyasətini bir daha bəyan etdi, İrəvanı konstruktivliyə çağırdı; **Tofiq Zülfüqarov:** "Prezidentin fikirlərindən ortaya çıxan nəticə budur ki..."

**Prezident qeyd edib ki, münaqişə ilə bağlı danışıqların indiki mərhələsi ictimaiyyət üçün bəllidir. Dövlət başçısı Qarabağ ətrafında gedən diskussiyalar zamanı ortaya çıxan suallara da aydınlıq gətirib və müəmmalara son qoyub. Eyni zamanda Ermənistan rəhbərliyinin danışıqların formatı ilə bağlı cəhdlərinin iflasa uğradığına işarə edib. Sitat:** "Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır". (AZƏRTAC)

**İlham Əliyev qeyd edib ki, bununla yanaşı, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq:** "Azərbaycan ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Eyni zamanda bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib. Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik. Biz bundan sonra yalnız ən müasir texnikanı, silahları almaq fikrindəyik və bu texnikanı bizə satmaq istəyən ölkələrin sayı artır. Onsuz da bu məsələ ilə bağlı heç bir çətinlik yoxdur. Əvvəlki illərlə müqayisədə bu gün biz seçim edirik, nəinki hansısa bir təchizatçıya bağlıyıq. Ona görə biz bu gün bir çox ölkələrdən hərbi təyinatlı məhsullar alırıq. Bu il Bakıda üçüncü müdafiə sənayesi sərgisi uğurla keçirilmişdir. Bir çox aparıcı şirkətlər öz məhsullarını nümayiş etdirmişlər. Azərbaycan öz hərbi-texniki potensialını ortaya qoydu. Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib".

**Ölkə başçısının növbəti fikirləri Azərbaycanın hansısa bloklara qoşula biləcəyi ilə bağlı müzakirələrə də son qoyur. Bir daha aydın olur ki, Ermənistanın "Azərbaycan KTMT-yə üzv ola bilməyəcək" kimi bəyanatının heç bir mənası yoxdur, çünki Azərbaycanın, ümumiyyətlə, belə bir istəyi, arzusu yoxdur. Eyni zamanda rəsmi Bakının digər beynəlxalq təşkilatlara üzv olmaq niyyətinin olmadığı da vurğulanıb. Prezidentin fikirlərindən bir daha bəlli olur ki, Azərbaycanın əsas hədəfi hansısa quruma üzvlük deyil, siyasətinin prioriteti ikitərəfli və çoxtərəfli əməkdaşlıqlar sayəsində Ermənistanın işğalı altındakı ərazilərimizi azad etməkdir. Sitat:** "Bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransı keçirilmişdir. Azərbaycan bu təşkilatda uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq bu təşkilata, dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına sədrlik edəcək. Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək. Biz bu il Avropa İttifaqı ilə əlaqələrimizin inkişafı istiqamətində növbəti ciddi addım atdıq. Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır və hesab edirəm ki, bu, çox önəmli addımdır, önəmli sənəddir. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapır. O cümlədən bu sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəalar həm ədalətlidir, həm də bizim mövqeyimizi və maraqlarımızı tam şəkildə ifadə edir. Bu sənəddə göstərilir ki, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən dəstəklənir. Eyni zamanda NATO-nun Zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək bir daha ifadə edilmişdir. Bütün bu sənədlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim mövqeyimizi daha da möhkəmləndirir. Onsuz da münaqişənin həlli üçün kifayət qədər geniş hüquqi baza vardır, eyni zamanda, yeni addımlar, xüsusilə ölkəmizin suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri, sazişlərdə əks olunan müddəalar bizim mövqeyimizi daha da möhkəmləndirir".

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a bildirdi ki, dövlət başçısının fikirlərinə daha geniş prizmadan yanaşılmasının tərəfdarıdır:** "Söhbət təkcə danışıqların formatının dəyişməsindən getmir. Biz başa düşürük ki, indiki mərhələdə danışıqların effekti yoxdur, heç bir nəticə verə bilməz. Çünki Ermənistan tərəfində konstruktiv mövqe yoxdur. Odur ki, mən bu fikri konfliktin məzmununa aid edirəm. Yəni konflikt iki ölkə arasındadır və birmənalı şəkildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə bağlıdır. Ermənistanın bu münaqişədə tərəf olması onu sübut edir. Dövlət başçısının da dediklərindən belə nəticəyə gəlirik ki, konfliktin formatı birmənalı şəkildə iki dövlət arasındadır və bu format dəyişmir. Ermənistanın istəyi belə idi ki, biz qıraqda dururuq, erməni icması ilə Azərbaycan dövləti, yaxud Qarabağdakı oyuncaq "dövlət"lə Azərbaycan dövləti arasında danışıqlar getməlidir. Dövlət başçısı isə birmənalı şəkildə bu məsələyə prinsipial münasibət bildirdi və qiymət verdi".

**Ermənistanın baş naziri Nikol Paşinyan Düşənbə görüşündə Azərbaycan prezidenti ilə əldə etdiyi razılaşmalardan danışarkən bildirdi ki, tərəflər operativ əlaqə yaratmaq barədə anlaşıblar. Bu faktın özü İrəvanın Qarabağ məsələsində tərəf olduğunu etiraf etməsi və Bakının müqaviməti qarşısında geri çəkilməsi demək idi. Yəni artıq bundan sonra Dağlıq Qarabağ separatçılarının "tərəf" olaraq sırınması cəhdlərinə yer qalmır. Xüsusilə də Azərbaycan prezidentinin prinsipial mövqeyi məsələyə nöqtə qoyulduğunu deməyə əsas verir. T.Zülfüqarov da bu yanaşma ilə razıdır:** "Ermənistan tərəfi həqiqətlərə üstünlük verməyə məcbur oldu. Yəni mümkün deyil ki, Azərbaycan süni şəkildə kabinetlərdə, ya da küçələrdə yaranan sxemləri qəbul etsin".

**Sabiq nazir prezidentin Ermənistanın mövcud rəhbərliyi barədə dediklərini də şərh etdi:** "Prezidentin fikirlərindən ortaya çıxan nəticə budur ki, bundan sonra hər şey Ermənistanın mövqeyindən asılıdır. Çünki biz danışıqlar üçün nə lazımdırsa, bununla bağlı zəruri bəyanatlar vermişik və bizim mövqeyimiz hansısa şəkildə dəyişən deyil. Əgər Ermənistan doğrudan da real nəticələr əldə etmək istəyirsə, bu məsələnin həllində maraqlıdırsa, onda top onların tərəfindədir. Təbii ki, söhbət Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll variantından gedir".

**T.Zülfüqarov Azərbaycanın Ermənistana məsələni sülh yolu ilə həll etmək, həmçinin fəlakətlərdən xilas üçün növbəti şans verdiyi qənaətindədir:** "Əslinə qalsa, Ermənistanda "inqilab" ona görə baş verdi ki, orada böhran vəziyyəti yarandı. Böhran ondan irəli gəldi ki, onlar konflikti həll etməyə maraq göstərmədilər. Nəticədə iqtisadi, siyasi böhran yarandı. Əslinə qalsa, "inqilab"ın səbəbləri bu idi. Əgər münaqişə həll olunmasa, orada vəziyyət yaxşılığa doğru dəyişməyəcək. Yəni sərt mövqelərlə çıxış etməklə, hakimiyyəti gücləndirməklə problemləri həll etmək mümkün deyil. Qarabağla bağlı siyasi iradə nümayiş etdirmək və torpaqları işğaldan azad etmək lazımdır, bunun ayrı yolu yoxdur. Bu, Ermənistanın inkişafına da yol aça bilər".

Keçmiş nazir dövlət başçısının ordumuzun qüdrətini xatırlatmasını da məntiqli hesab edir: "Bu da o deməkdir ki, biz Ermənistanın reallığı nəzərə almasını gözləyirik. Amma biz vəziyyəti real görürük və ordu, güc faktoru kənarda qalmır. Çünki bu torpaqlar güc yolu ilə işğal olunub. Deməli, əgər danışıqlar yolu ilə azad olunmasa, güc vasitəsilə azad olunacaq".

**T.Zülfüqarov prezident İ.Əliyevin fikirlərindəki bir məqama da xüsusi diqqət yetirməyi vacib sayır:** "Orada bəyan olunmuş bəzi məsələlər daha çox beynəlxalq ictimaiyyətə ünvanlanıb, nəinki Ermənistana. Bəli, orada ünvan Ermənistan görünür, amma çıxışın əsas ünvanı fikrimcə, beynəlxalq ictimaiyyət, ilk növbədə həmsədrlərdir. Bəlkə də səhv edirəm, amma mən belə hesab edirəm".

YENİ MÜSAVAT
N 214 (7103) 11 oktyabr 2018

# Məhkəmə-Hüquq Şurası hakimləri yenə cəzalandırdı - proses sürətlənir

## Əliməmməd Nuriyev: "Belə qərarlar yalnız cəza xatirinə verilmir"

**Məhkəmə-Hüquq Şurasının iclası keçirilib. Oktyabrın 9-da yayılan rəsmi məlumata görə, iclasda hakimlər barədə intizam icraatlarına baxılıb: "Qanunvericiliyin tələblərinin kobud pozulmasına, korrupsiyaya şərait yaradan hallara, süründürməçilik və digər nöqsanlara yol verilməsi ilə əlaqədar Qaradağ Rayon Məhkəməsinin hakimi Rəşad Məmmədov töhmət alıb".**

Bundan əlavə, Səbayel Rayon Məhkəməsinin hakimi Nurəddin Bağırovun tutduğu vəzifədən azad olunması, Zaqatala Rayon Məhkəməsinin hakimi Arif İsmayılovun hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qərar qəbul edilib. 4 hakimin isə səlahiyyətlərinə digər qanuni əsaslarla xitam verilib. Konkret korrupsiya faktı üzrə araşdırma materiallarının hüquqi qiymət verilməsi məqsədilə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilməsi məqsədəmüvafiq bilinib.

Qeyd edək ki, Məhkəmə-Hüquq Şurası vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi funksiyalarını həyata keçirən orqandır. 2005-ci ilin fevral ayından fəaliyyətə başlayan Məhkəmə-Hüquq Şurasına ədliyyə naziri Fikrət Məmmədov sədrlik edir.

Son aylarda tez-tez hakimlərin işdən çıxarılması və ya töhmət almaları halları baş verir. Bu da bir sıra müzakirələr yaradır. Belə halların məhkəmə sisteminin işinə müsbət töhfələr verəcəyi qeyd olunur. Eyni zamanda hakimlərin cəzalandırılması ilə bağlı qərarların davamlı olacağı vurğulanır.



**Əfv Komissiyasının üzvü, hüquqşünas Əliməmməd Nuriyev bildirdi ki, intizam icraatının başlanması müraciətlər əsasında olur:** "Bu, əslində Məhkəmə-Hüquq Şurası tərəfindən vətəndaş müraciətlərinə pozitiv münasibətin nəticəsidir. Eyni zamanda bu qərarlar hakimlərin fəaliyyətində olan nöqsanların aradan qaldırılmasına birbaşa xidmət edir. Həmçinin hakimlərin etik davranışlarındakı problemlərin aradan qaldırılmasında da mühüm rol oynayır. Belə qərarlar yalnız cəza xatirinə verilmir. Bəzi hakimlər var ki, müraciətlərə vaxtında baxmır, qərarları vaxtında təqdim etmir, proses zamanı etik qaydalar onlar tərəfindən pozulur, digər qanunsuzluqlara da yol verilir. Əgər bunların qarşısı alınmasa, hakim özbaşınalığı durmadan artar. Hakimlərin qərar qəbul etmələrinə hər hansı bir müdaxilə yoxdur. Bunlar həm də ədalət mühakiməsinin məqsədlərini həyata keçirməyə xidmət edən qərarlardır. Hakimlər bu cür qərarlardan sonra daha məsuliyyətli olurlar, vətəndaş müraciətinə daha diqqətlə baxırlar. Bütün bunlar qanun çərçivəsində olmalı, qanunun tələbləri gözlənilməlidir. Belə qərarlar hakimləri çəkindirici etmir, əksinə onların müstəqilliyinə xidmət edir. Bəzi hərəkətlər var ki, hakimlərin onu etməli olduqları halda etmirlər, hərəkətsizliyə yol verirlər. Nəticədə bu cür cəzalarla üzləşirlər. Səlahiyyətindən sui-istifadə edən hakimlər də az deyil. Bilirsiniz ki, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi üç ildən bir baş verir. Bu qiymətləndirmədə qeyd etdiklərimizə diqqət yetirilir. Onu da unutmaq olmaz ki, hakimlərin özlərini müdafiə etmək imkanları var. Bu baxımdan onların barələrindəki qərarlardan şikayət etmək hüquqları mövcuddur. Hüquqlarından istifadə etmək onların haqqıdır. Hakim hesab edə bilər ki, barəsindəki qərar qanunsuzdur və bunun üçün şikayət verməyə ehtiyac görər. Biz məhkəmələrin monitorinqini aparırıq. Bir çox hallarda bizə də vətəndaşlar və hüquqi şəxslər tərəfindən müraciətlər olur. Biz istərdik ki, vətəndaşlar müraciətləri daha çox Məhkəmə-Hüquq Şurasına etsinlər. Çünki hakimlər barəsindəki qərarları bu qurum verir. Bütün hallarda hakimlərin fəaliyyətinə xitam vermək olmur ki. Töhmət verilmə halları bunun sübutudur, xəbərdarlıqlar da olunur. Ən son halda hakimin səlahiyyətlərinə xitam verməkdən söhbət gedir. Hakimin fəaliyyətində cinayət tərkibi varsa, bu artıq müvafiq qurumlara göndərilir. Məhkəmə-Hüquq Şurasının son iclasında bir mühüm məsələyə də toxunuldu. Şuranın sədri, hörmətli Fikrət müəllim qeyd etdi ki, korrupsiyaya qarşı mübarizə ilə əlaqədar iş aparılır, bundan sonra bu məsələyə daha çox diqqət veriləcək".

**Ə.Nuriyev Məhkəmə-Hüquq Şurasının çox effektli, səmərəli fəaliyyət göstərdiyini deyir:** "Bu istiqamətdə fəaliyyətini durmadan genişləndirir. Vətəndaşların hüquq və azadlıqlarını təmin etmək üçün var gücü ilə çalışır. Hakimlərin müstəqilliyinə xələl gətirmədən fəaliyyətini aparır. Hakimlərin fəaliyyətinə o zaman xələl gəlir ki, onlar tapşırıq əsasında qərarlar qəbul edirlər. Əgər hakim etik qaydaları pozursa, qanunsuz qərar verirsə, ədalət mühakiməsini həyata keçirmək mümkün olmur. Hakimlərin fəaliyyətinin səmərəli qiymətləndirilməsi ilə bağlı Avropa İttifaqı layihə həyata keçirdi. Hakimlər geniş imkanlar yaradılıb. Bu proses dərinləşdirilməlidir. Belə qərarların hakimlərin bundan sonrakı fəaliyyətlərinə müsbət təsir edəcəyi qənaətindəyəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Avropa Məhkəməsi Azərbaycana 10 sual ünvanladı

## Elman Nəsirov: "Vidadi İsgəndərli psixiatrın potensial pasiyenti ola bilər"

**Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) Azərbaycandan göndərilən 10 şikayətlə bağlı hökumətə suallar göndərib. Bu haqda AİHM-in məlumatında bildirilir.**

Şikayətləri araşdırılanlar arasında tanınmış simalar da var. Bir neçə il əvvəl Azərbaycandan Avropaya mühacirət edən hüquq müdafiəçisi Vidadi İsgəndərov qanunsuz həbs edilməsindən, saxlanılma şəraitindən AİHM-ə şikayət edib. Diabet xəstəsi olan V.İsgəndərli şikayətində yazıb ki, 2011-ci ildə həbs edilərkən 2 nəfərlik kamerada 7 nəfərlə birgə, havasız şəraitdə saxlanılıb, bu, onun hüquqlarını pozub.

Şikayətləri araşdırılanlar arasında Nardaran hadisələrinə görə həbs edilmiş Zülfüqar Mikayılov və Elman Ağayev də var. Onlar məhkəməyə qədər həbslərinin qanunsuzluğundan, məhkəmə zamanı metal qəfəsdə tutulmalarından şikayət ediblər.

Prezident Administrasiyasının İşlər İdarəsinin rəhbəri olmuş Akif Muradverdiyev də şikayəti araşdırılanlardandır. 2011-ci ildə həbs edilən, daha sonra ölkə prezidentinin əfv etdiyi A.Muradverdiyev həbsinin, evində axtarış aparılmasının qanunsuzluğundan, vəkilsiz sorğu-sual edilməsindən şikayətçidir.

Araşdırılan digər şikayətlərdə də iddia edilən hüquq pozuntuları oxşardır.

Mənsur Heydərzadə polisdə 48 saatdan artıq saxlanılmasından, Vüqar Əliyev Nərimanov polisində bir günə yaxın ac-susuz, havasız şəraitdə tutulmasından, Nazim Agabəyov məhkəməyəqədər həbs edilməsinin qanunsuzluğundan şikayət edib. Daşqın Mikayılov, Tural Səfərov, Məhəmməd Bağırov, Vüqar Əliyevun şikayətlərində də eyni məzmunlu pozuntulara məruz qaldıqları iddia olunur. Avropa Məhkəməsi Azərbaycan hökumətinə Avropa Konvensiyasının 3-cü (İşgəncələrin yolverilməzliyi), 5-ci (Azadlıq və toxunulmazlıq hüququ), 6-cı (Ədalətli məhkəmə araşdırması), 8-ci (Şəxsi həyata hörmət) maddələri üzrə aydınlaşdırıcı suallar göndərib.

Qeyd edək ki, son zamanlar Avropa Məhkəməsi tərəfindən Azərbaycandan edilən şikayətlərlə bağlı tez-tez qərarlar qəbul edilir, rəsmi Bakı ard-arda cərimələnir. Bu da Azərbaycan hökumətinin sərt etirazları ilə qarşılanır. Kompensasiyaların hissə-hissə ödənilməsi, yaxud ödənişlərin yubadılması bunu deməyə əsas verir.



**YAP-çı deputat Elman Nəsirov "Yeni Müsavat"a açıqlamasında AİHM-i sərt tənqid etdi:** "Azərbaycan Avropa Şurasının üzvüdür. Quruma daxil olarkən üzərimizə öhdəliklər götürmüşük. Eyni zamanda bizim hüquqlarımız və vəzifələrimiz var. Bir çox hallarda şahidi oluruq ki, şəxslər öz fəaliyyətləri, davranışları ilə cinayət yolunu tutublar, konkret cinayət törədirlər və ona görə də hüquqi müstəvidə cəzalandırılırlar. Belə şəxslər də əvvəlcədən siyasi bəyanatlarla çıxış edirlər, hakimiyyəti qərəzli şəkildə tənqid edirlər. Bununla çalışırlar ki, hüquqi müstəvidə məsuliyyətə cəlb olunduqda siyasi motivi qabartsınlar. Belə halların dəfələrlə şahidi olmuşuq. Vidadi İsgəndərli də həmin sıradadır. Onun davranışlarına, yanaşmalarına diqqət yetirəndə görürük ki, bu şəxsin ciddi müayinəyə ehtiyacı var. Çünki o, elə bir mövqe ortaya qoyur ki, bir çox hallarda onun əqli problemlərinin olması gündəmə gəlir. Xatırlayıram ki, ölkəmizin tanınmış bir şəxsi televiziyaya baxanda söyləmişdi ki, Vidadi İsgəndərli psixiatrın potensial pasiyenti ola bilər. Belə insanlar tənqid yox, təhqir yolunu seçirlər. Nəticə etibarı ilə onlar qanunazidd addımlar atırlar. Məsuliyyətə cəlb olunan kimi bu şəxslər deyirlər ki, ölkə başçısını, hakimiyyəti tənqid etdiyim üçün cəzalandırılıram. Halbuki qətiyyən belə deyil. Azərbaycan demokratik inkişaf yolunu seçmiş bir dövlətdir. Demokratiyada son nöqtə yoxdur. Hansı dövlət desə ki, demokratiyanın pik nöqtəsindədir, bu yanlış olar. Azərbaycan 27 yaşı olan gənc dövlətdir. Biz insan hüquqlarının müdafiəsi sahəsində çox ciddi addımlar atırıq. Ölkədə əhalinin 80%-dən çoxu internet istifadəçisidir. İstədiyi fikirləri yazırlar, istədikləri kimi hakimiyyəti tənqid edirlər. Bundan artıq nə ola bilər? Hesab edirəm ki, bu məsələlərə görə Avropa Məhkəməsi yanaşmasında həssas olmalı, ciddi şəkildə araşdırma aparmalıdırlar. Vidadi İsgəndərli kimi insanların iddialarına münasibətdə ciddi şəkildə araşdırma aparmalıdırlar ki, doğrudan da bu iddiaların əsası var ya yox? Xaricdən aldığı qrantlar hesabına yaşayan, anti-Azərbaycan qüvvələrin əlində alət olan insanların Avropa Məhkəməsinə üz tutması sırf onunla bağlıdır ki, cinayət əməllərini gizlətsinlər, qarşı tərəfi ittiham etsinlər, əvəzində hətta müəyyən maliyyə vəsaitləri qoparmağa nail olsunlar, yəni Avropa Məhkəməsinin konkret qərarları əsasında. Azərbaycan ictimaiyyəti belə insanları qəbul etmir. İctimaiyyət yaxşı başa düşür ki, mühacir adı ilə Avropaya gedənlərin tam əksəriyyəti Azərbaycanı sevməyən, dövlətimizə düşmən gözü ilə baxan ermənipərəst qüvvələrin əllərinə keçiblər. Həmin ermənipərəst qüvvələr bunları maliyyələşdirirlər. Bunlar da əvəzində Azərbaycan əleyhinə hər cür hədyanlar yağdırırlar. Onları məsuliyyətə cəlb etmək istədikdə isə özlərini "siyasi məhbus" kimi tanıtmağa başlayırlar. Reallıq bununla bağlıdır. Amma onu da deyim ki, Rusiya və digər ölkələrdə çox qeyrətli azərbaycanlılar var. Onlar ölkəmizin milli maraqlarını hər şeydən üstün tuturlar, dövlət maraqlarımızı müdafiə edirlər, ermənilərin beynəlxalq qurumlarda ifşaları üçün çox ciddi addımlar atırlar, piketlər keçirirlər, Azərbaycanın haqq səsini dünyaya çatdırırlar. Belə azərbaycanlıların xaricdə sayları kifayət qədər çoxdur. Təəssüf ki, Vidadi kimilər də var. Onlar əslində tarixə bir ləkədirlər".

**Deputat kompensasiyalarla bağlı problemlərdən də söz açdı:** "Avropa Məhkəməsinin məlum qərarları Azərbaycan tərəfə təqdim edilir. Həmin qərarlarla bağlı bizim çox ciddi arqumentlərimiz var. Bir çox hallarda Avropa Məhkəməsinin qərəzli qərarlarının şahidi oluruq. Orada bəzən elə şəxslər əyləşirlər ki, ölkəmizə qarşı qərəzli mövqedə dayanırlar. Bizim əsas tələbimiz odur ki, Avropa Məhkəməsi tam reallığa qiymət versin, tələm-tələsik qərarlar qəbul etməsin. O zaman görəcəklər ki, bu insanlara qarşı Azərbaycanda heç bir təzyiq olmayıb. Avropa Məhkəməsinin qərarlarına Avropa ölkələrinin bəzilərindən belə narazılıqlar var".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**Oktyabrın 2-də Səudiyyə Ərəbistanının İstanbul Konsulluğuna daxil olan və orada yoxa çıxan jurnalist Camal Qaşıqçı ilə bağlı müəmmalar davam edir. Xəbər verdiyimiz kimi, artıq ABŞ prezidenti Tramp Qaşıqçının itkin düşməsi xəbərindən narahat olduğunu bildirib. Dövlət Departamenti isə Səudiyyə Ərəbistanı hakimiyyətinə müraciət edərək istintaqla əməkdaşlıq etməyə çağırıb.**

# Qaşıqçıya qarşı müdhiş cinayət dünyanı silkələyir

## Səudiyyə Ərəbistanından jurnalisti öldürmək üçün İstanbula sui-qəsd qrupu gəlməsi, onun parçalara bölünməsi haqda məlumatlar yayıldı; amma...

Bu arada Səudiyyə Ərəbistanında "Müctəhid" ləqəbi ilə yazan sosial media fəalı Qaşıqçı təhqiqatının vəliəhd-şahzadə Məhəmməd bin Salmanın karyerası üçün son olacağını bildirib. Qeyd edək ki, "Müctəhid" nikli müəllif gizli addır, Səudiyyə sarayında gizli məlumatları yayır, ancaq onun kimliyi hələlik bilinmir.

Türkiyə və Qərb mediası isə Qaşıqçı hadisəsi ilə bağlı bir sıra versiyalar irəli sürüb. «Anadolu» Agentliyi yazıb ki, Səudiyyə Ərəbistanının İstanbuldakı konsulluğuna Qaşıqçı itkin düşdüyü gün axşam saatlarında 3 nəfər daxil olub, onlardan birinin əlində alət çantası olub. Konsulluq qapısında işçilərdən biri tərəfindən qarşılanan 3 nəfər binada 1 saata yaxın qaldıqdan sonra çıxıblar.

"Nyu York Tayms" qəzeti isə Türkiyə rəsmilərinə istinadən krallıq ailəsinin qərarı əsasında Qaşıqçının konsulluq binasında öldürüldüyünü yazıb. Adını açıqlamayan hökumət rəsmisi Qaşıqçı əməliyyatının "sürətli və qarışıq" olduğunu, iki saat davam etdiyini bildirib. Qəzet yazıb ki, səudiyyəli xüsusi qrup konsulluq binasında Qaşıqçını öldürüb və onun cəsədini doğrayaraq parçalara ayırıb konsulluqdan çıxarıb.

"Vaşinqton Post" qəzeti isə Camal Qaşıqçının Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğunun binasında saxlanılacağından ABŞ kəşfiyyatının əvvəlcədən xəbərinin olduğunu yazıb. Bildirilib ki, ABŞ kəşfiyyatı telefon danışıqları əsasında Səudiyyə Ərəbistanı hakimiyyəti təmsilçilərinin müxalif düşüncəli jurnalist Camal Qaşıqçının konsulluğun binasında saxlayacaqlarını bilirmiş. Məlumata əsasən, onu şirnikləndirərək, Səudiyyə Ərəbistanına aparıb, tutmağı planlaşdırıblarmış.

Türkiyənin "Akşam" qəzeti isə Qaşıqçının ölümündə adı keçən və hadisədən bir gün qabaq İstanbula gələn, oktyabrın 2-də İstanbulu tərk edən 15 Səudiyyə Ərəbistanı vətəndaşının görüntülərini və şəxsi məlumatlarını paylaşıb. Məlumatlarda 15 nəfərin şəxsi bilgiləri, eləcə də Türkiyəyə gəldikləri saat, təyyarə reysi, qaldıqları hotel və hoteldən çıxma saatları, nəhayət, İstanbulu tərk etdikləri vaxtlar qeyd olunub.

İstanbula gələnlər arasında Salah Məhəmməd əl-Tubaiqi (1971-ci il təvəllüdlü) şəxsin Səudiyyə Ərəbistanı Məhkəmə Tibbi Ekspertiza İdarəsində çalışdığı və dəlilləri gizləmək üçün gəldiyi iddia edilir.

Mətbuatın yazdığına görə, Türkiyə polisi hazırda 150 kameranın qeydə aldığı kadrları araşdırır. Bu kameralarda konsulluq binasına gələnlər, onların getdikləri yerlər qeyd olunub. Bu günə qədər olan məlumata əsasən, Səudiyyə Ərəbistanından olan 9 nəfər şübhəli şəxs oktyabrın 2-də sabah saat 3:28-də İstanbul Atatürk Hava Limanına daxil olub. Gələnlər saat 3:37-də pasport qeydiyyatından keçib və şəhərə giriblər. Hava limanında onları konsulluğa məxsus avtomobil qarşılayıb və saat 05.05-də şübhəliləri konsulluq avtomobili İstanbulun Levent rayonundakı "Mövenpick Hotel"ə gətirib. Oktyabrın 2-də saat 13:14-də isə jurnalist Qaşıqçı Səudiyyə Konsulluğuna daxil olur. Ancaq bundan sonra ondan xəbər almaq mümkün olmur.

"Mövenpick Hotel"də olan səudiyyəli 9 nəfər şübhəli isə səhər 3 qrupa bölünərək 09:40, 09:55 və 10.50-də hoteli tərk edirlər. Saat 12 radələrində Səudiyyə Ərəbistanının İstanbul Konsulluğuna bir neçə avtomobil ardıcıl olaraq gəlir. Qaşıqçı konsulluğa daxil olduqdan bir qədər sonra, daha dəqiqi, saat 15:08-də 34 CC 2248 nömrə nişanlı, ardınca isə 34 CC 1865 nömrə nişanlı avtomobil konsulluq binasını tərk edir. Saat 15:11-də konsulluq binasına 34 CC 1865 nömrə nişanlı "Mersedes Vito" markalı avtomobil gəlir və bir qədər gözlədikdən sonra konsulluğun qarajına daxil olur.

Axşam saat 19:57 və 20:11-də Səudiyyə Ərəbistanından gələn 9 nəfər yenə 3 qrup şəklində hoteli tərk edir və konsulluq avtomobillərinə minərək hava limanına gedirlər. Saat 21-də isə onlar xüsusi təyyarə ilə İstanbulu tərk edirlər. Digər 6 nəfərlik qrup da saat 17:40-da İstanbulu tərk edib.

Bu arada ABŞ-ın vitse-prezidenti Mayk Pens deyib ki, Qaşıqçı cinayətini araşdırmaq üçün ABŞ hökuməti İstanbula Federal Təhqiqatlar Bürosunun əməkdaşlarını göndərə bilər. Bilindiyi kimi, hazırkı ABŞ administrasiyası və Səudiyyə hakimiyyəti arasında, xüsusən də hazırda krallığın əsas adamı olan vəliəhd-şahzadə Məhəmməd bin Salmanla yaxşı əlaqələri var. Tramp özü də dəfələrlə Səudiyyə hakimiyyətini, şahzadə Məhəmmədi xeyli tərifləyib. İndi isə bu qalmaqal şahzadənin imicinə ciddi zərbə olmaqla yanaşı, eyni zamanda Vaşinqton administrasiyasını pis vəziyyətdə qoyur.

Türk əsilli Səudiyyə Ərəbistanı vətəndaşı Camal Qaşıqçı ölkəsinin məşhur qələm adamlarından hesab olunur. Hakim ailəyə yaxın olan jurnalist uzun illər nüfuzlu Ərəbistan medialarında çalışıb və ya onlara rəhbərlik edib. Ancaq Qaşıqçının "Müsəlman Qardaşlar" Hərəkatına yaxın olması, zaman-zaman demokratiya çağırışları, eləcə də hazırda hakimiyyətin sevmədiyi siyasilərlə yaxın olması onun üzünə qapıları bağlayıb. Ötən il isə Qaşıqçı Ərəbistanı tərk edib. Bu dövrdə o, "Vaşinqton Post" qəzetində yazıb, ABŞ və Türkiyədə yaşayıb. Ancaq yoxa çıxmamışdan bir neçə gün əvvəl BBC-yə verdiyi müsahibəsində Qaşıqçı ölkəsinə qayıda bilməyəcəyini, orada onu təhlükə gözlədiyini etiraf edib. Bu müsahibəni isə BBC dünən yayıb. Oktyabrın 2-də isə Səudiyyə Ərəbistanındakı kral sarayında çalışan keçmiş həyat yoldaşından boşanma işləri ilə bağlı bəzi sənədləri imzalamaq üçün krallığın İstanbul konsulluğunda gedən Qaşıqçı bir daha ordan çıxmayıb. Onun sağ olduğu və ya medianın iddia etdiyi kimi, konsulluqda öldürülüb çıxarıldığı dəqiq bilinmir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**




# Jurnalistlərə qarşı sui-qəsd cinayətləri artır - səbəb...

## Qulu Məhərrəmli: "Vaxtilə jurnalist qətli xəbəri müharibə bölgəsindən gəlirdi, indi isə..."

**Bolqarıstanın şimal-şərqindəki Rusçuk şəhərində oktyabrın 6-da öldürülən jurnalist qadın Viktoriya Marinovanın qətlində şübhəli bilinən şəxs Almaniyada həbs olunub.**

Bolqarıstanın baş naziri Boyko Borisov, baş prokuror Sotir Tzatzarov və daxili işlər naziri Mladen Marinovun birgə keçirdikləri mətbuat konfransında cinayətkarın 21 yaşlı Severin Krasimirov olduğu açıqlanıb. Verilən məlumata görə, jurnalist Viktoriya Marinova Tuna çayı sahilində hücuma məruz qalıb.

Krasimirovun keçmiş boksçu olduğu və hadisəni sərxoş vəziyyətdə törətdiyi bildirilir. Təqsiri sübuta yetiriləcəyi təqdirdə onu 20 ilədək və ya ömürlük həbs cəzası gözləyir. Baş nazirin sözlərinə görə, aparılan testlər qətlin Krasimirov tərəfindən törədildiyini tam təsdiqləyir.

Baş prokuror bildirib ki, hazırkı mərhələdə Viktoriya Marinovanın öldürülməsinin onun peşə fəaliyyəti ilə bağlı olduğuna dair heç bir dəlil yoxdur. Polis bu mümkün deyil və istintaq bütün versiyaları nəzərdən keçirir. "Hazırda əldə edilən dəlil-sübutlar göstərir ki, qurbana hücum anidən baş verib və məqsəd seksual təcavüz olub", - deyə baş prokuror qeyd edib.

Otuz yaşlı Viktoriya Marinova regional TVN televiziyasının administrativ direktoru və aparıcısı idi.

"Washington Post" qəzetinin ştatdankənar müxbiri, türk əsilli Səudiyyə Ərəbistanı vətəndaşı Camal Qaşıqçı Səudiyyə Ərəbistanının İstanbuldakı konsulluğuna gedəndən sonra yoxa çıxıb. Türkiyə rəsmiləri onun konsulluqda qətlə yetirildiyinə inanırlar, lakin Səudiyyə bu iddianı rədd edir. Səudiyyə rəsmiləri israr edirlər ki, jurnalist konsulluğun binasını tərk edib.

Keçmiş qəzet redaktoru olan Qaşıqçı Səudiyyə Ərəbistanını ötən il, ondan Yəmən müharibəsinin tənqidi ilə bağlı yazılarına görə qisas alınacağından ehtiyatlandığına görə tərk etdiyini bildirib. Macarıstana səfəri əsnasında danışan Ərdoğan deyib ki, "səudlar yaxalarını "o, konsulluğu tərk edib" deməklə qurtara bilməzlər".

**Ərdoğan Macarıstanın baş naziri Viktor Orbanla Budapeştdə keçirdiyi mətbuat konfransında deyib:** "Onların çox sayda kameraları var... Əgər o, oranı tərk edibsə, sübutunu niyə təqdim etmirlər. Biz bu məsələni belə buraxmayacağıq".

Ərdoğan bildirib ki, Türkiyə polisi, kəşfiyyatı və ədliyyəsi bu məsələni araşdırır. Türkiyə lideri deyib ki, bu məsələni çözmək onun "siyasi və insani vəzifəsidir".

İstanbulda Səudiyyə Ərəbistanının konsulluğu qarşısında etiraz aksiyası keçirilib.

Slovakiyada öldürülən 27 yaşlı jurnalist Yan Kuçiakın qətli ilə bağlı maraqlı məlumat üzə çıxıb. Jurnalistin qətlini sifariş verən şəxsin qatilə külli miqdarda pul ödədiyi məlum olub. Adının açıqlanmasını və fotosunun çəkilməsini istəməyən prokuror mətbuat konfransı zamanı bildirib ki, sifarişçi muzdlu qatilə 70 min avro ödəyib. Onun sözlərinə görə, qətlə görə 4 nəfər: sifarişçi, vasitəçi, köməkçi və atəş açan şəxs saxlanılıb.

Qeyd edək ki, 27 yaşlı araşdırmaçı jurnalist Yan Kuçiak 2018-ci il fevralın 25-də evində nişanlısı ilə birlikdə qətlə yetirilib. Onun öldürülməsindən sonra Slovakiyada siyasi böhran yaşanıb, ölkənin baş naziri, mədəniyyət naziri və daxili işlər naziri istefa verib.

2014-cü ildə özünü "İslam Dövləti" adlandıran terrorçu "İraq Şam İslam Dövləti" (İŞİD) qruplaşması ABŞ-dan olan jurnalist Ceymis Foulini vəhşicəsinə qətlə yetirmişdi. Terrorçular jurnalistin başını kəsmiş və bu dəhşətli səhnəni videoya da çəkmişdilər.

İŞİD bəyan edib ki, bu, ABŞ-a ismarışdır. Bununla onlar ABŞ-dan qoşunlarını İraq ərazisindən çıxarmağı tələb edirlər.

"İŞİD" tələbləri yerinə yetirilməzsə, girovluqda saxladıqları digər amerikalı jurnalisti - "Time" dərgisinin müxbiri Coela Sotloffanı qətlə yetirəcəkləri ilə hədələyib.

**Tanınmış televiziya mütəxəssisi, media eksperti Qulu Məhərrəmli hesab edir ki, bu mənzərənin yaranmasının iki səbəbi var. Onun sözlərinə görə, rejimlərin demokratik və avtoritar olmasından asılı olmayaraq jurnalistlərə qarşı başlanan səlib yürüşünün səbəbi dünyada naqisliklərin artmasıdır. Müsahibimiz hesab edir ki, dünyada korrupsiyanın güclənmə dalğası baş verib:** "İdarəçilər elə yetişib ki, azad sözü, tənqidi eşitmək istəmirlər. İctimai nəzarətə tab gətirmək istəmirlər. Bunun da nəticəsində ictimai aşkarlığı ifadə edən jurnalistlərə qarşı qisas hərəkətləri edilir. Bu, Avropa ölkələrində daha çox olur. Adətən statistikalar müharibə zonalarından verilib. Amma son zamanlar idarəçilərin söz azadlığını məhdudlaşdırması faktları heç də müharibə zonalarından gəlmir".

**Q.Məhərrəmli hesab edir ki, Donald Trampın Amerikada hakimiyyətə gələn kimi ilk növbədə jurnalistlərə qarşı müharibə elan etməsi də dünyada jurnalistlərə qarşı münasibətin pisləşməsinin bir əlamətidir:** "Son vaxtlar bu mövzuda ciddi geriləmə var. Hazırda Amerikada ictimai qınaqlar olduğu üçün Tramp mediaya qarşı hücumları səngidib. Amma hakimiyyətinin ilk bir illik dönəmində söz azadlığına qarşı çıxışları müəyyən dərəcədə dünyada demokratiyanın beşiyi olan ölkə rəhbərinin söz azadlığına "bəhrəsi" demək idi. Tendensiya o istiqamətdə gedir və bu, çox qorxuducudur".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 214 (7103) 11 oktyabr 2018

# Kim Çen In Roma Papasını ölkəsinə dəvət etdi - ikinci cəhd

## Şimali Koreya lideri ölkəsini beynəlxalq təcriddən çıxarmaq üçün səylərini artırır





**Şimali Koreya lideri Kim Çen In Roma Papası Fransisi rəsmən Pxenyana dəvət edib. Cənubi Koreya prezidenti Mun Caenin sözçüsü Kim Eukyeom müxbirlərə deyib ki, prezident Mun Şimali Koreya liderinin dəvətini oktyabrın 17-də Roma Papası ilə görüşdə ona çatdıracaq.**

Keçən ay Pxenyanda sammit zamanı Kim Çen In prezident Muna Roma Papasının Şimali Koreyaya səfər etməsini istədiyini deyib. Cənubi Koreya prezidentinin Roma Papası ilə görüşü onun Avropaya səfəri zamanı baş tutacaq. Prezident Mun Caen Avropa turu zamanı Danimarka, Fransa və İtaliyaya səfər edəcək.

Kim Çen Inın Roma Papasına dəvəti onun ölkəsini beynəlxalq təcriddən çıxarmaq üçün göstərdiyi səylər arasında sonuncusudur. Bu diplomatik səylərə Cənubi Koreya prezidenti Mun Caenlə üç zirvə görüşü və iyun ayında ABŞ prezidenti Donald Trampla Sinqapurda sammit daxildir.

Qeyd edilir ki, 2000-ci ildə də belə bir dəvət olub. Belə ki, o zamankı Şimali Koreya lideri Kim Conq İl Roma Papasını Şimali Koreyaya 2000-ci ildə dəvət etmişdi, lakin bu səfər baş tutmamışdı. Şimali Koreyanın konstitusiyası ilə din azadlığına icazə verilsə də, dini ibadət dövlət tərəfindən nəzarət edilərək məhdudlaşdırılıb.

Bəs bu dəfə Papa dəvəti qəbul edə bilərmi? Son zamanlar baş verənlər Papanın Şimali Koreyaya bu dəfə gedəcəyi ehtimalını artırırmı? Səfərin reallaşması Şimali Koreya ilə bağlı proseslərə necə təsir edə bilər?

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a şərhində bildirdi ki, bu dəfə Roma Papasının dəvəti qəbul etməsi ehtimalı böyükdür. Odur ki, Papanın Şimali Koreyaya səfəri baş tuta bilər. Çünki Qərb dünyası, katolik dünyası Şimali Koreyanın nüvə proqramlarına qarşı mübarizəni inandırma, yaxınlaşma vasitəsilə aparırlar. Bu yolla Şimali Koreya liderini nüvə proqramlarından əl çəkdirməyə çalışırlar. Son zamanlar bu proses aparılır:** "Bir müddət öncə ABŞ prezidenti Donald Trampla Şimali Koreya lideri Kim Çen Inın görüşü olub. Bu görüşün yaxşı ab-havada keçdiyi bəyan edilib. Hətta Tramp bu görüşü çox yadda qalan görüş adlandırıb. Bu görüşdə xeyli irəliləmələrin əldə edildiyi açıqlanıb. Hətta Trampdan sonra Cənubi Koreya prezidenti Mun Caen şimali koreyalı həmkarı ilə görüşüb və görüşdə ayrılmış iki xalqın birliyi məsələsi müzakirə edilib. Yəni Şimali Koreya ilə bağlı bir yumşalma prosesi var. Hələlik Kim Çen Innın da yumşaldığı sezilir. Lakin onun xarakterinin dəyişkən olduğunu nəzərə alsaq, bu prosesin yolunun enişli-yoxuşlu olacağını da bəri başdan söyləmək mümkündür. Mənim zənnimcə, Roma Papasının Şimali Koreyaya səfərinin təşkil edilməsi qeyd olunan proseslərin daha da sürətlə getməsinə kömək edə bilər. Əvvəla, Roma Papası Amerika və Cənubi Koreya ilə Şimali Koreya arasında bir vasitəçilik missiyasını həyata keçirə bilər. Şimali Koreyanın blokadasının səngidilməsi üçün Papanın müəyyən addımlar atması mümkündür. Amma məlumdur ki, hələlik Pxenyan nüvə silahının yaradılması planından imtina istiqamətində ciddi bir addım atmayıb və verdiyi vədlərin də heç birini hələ yerinə yetirməyib. Bu səbəbdən də Şimali Koreya lideri ilə Roma Papası Fransisin görüşünün prinsipial əhəmiyyəti ola bilər".

**Politoloq qeyd etdi ki, bu səfərin reallaşması həm Pxenyanın beynəlxalq mövqelərini möhkəmləndirər, həm də Roma Papasının danışıqlar prosesində bir vasitəçi, zəmanətçi qismində tanınmasına gətirib çıxara bilər. Beləliklə, diplomatiyanın həll edə bilmədiyi müəyyən məsələlər dini tolerantlıq və dini liderin köməyi ilə çözülər:** "Odur ki, reallaşma ehtimalı olan səfər kifayət qədər məsuliyyətli və üzərinə çox böyük missiyalar qoyulmuş səfər ola bilər. Roma Papasının səfəri həm Şimali Koreya ilə Cənubi Koreya, həm Şimali Koreya ilə ABŞ arasındakı düyünlərin çözülməsinə töhfə verər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



## AppLab iştirakçıları üçün blokçeyn texnologiyasına həsr olunmuş seminar keçirilib

**bakcell**

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «Bakcell» özünün AppLab inkubasiya proqramının iştirakçıları üçün blokçeyn texnologiyasına həsr olunmuş seminar təşkil edib.**

**"Gələcəyin texnologiyası: blokçeyn və blokçeyn startapının yaradılması" adlı seminarda yerli startapçılara blokçeyn texnologiyasının iş prinsipləri və onun müxtəlif layihələrə inteqrasiya edilməsi imkanları barədə geniş məlumat verilib.**

**"Blokçeyn texnologiyası yeni yarananda startapçılar bu yeniliyin hansı sahələrdə tətbiq oluna biləcəyini tam şəkildə başa düşmürdülər. Lakin bu gün blokçeyn üzərində qurulmuş startaplara daha tez-tez rast gəlinir. Biznes sahibi olan gənc startapçılar onun imkanlarını öyrənməlidirlər. Çünki bu texnologiya sayəsində xeyli gəlir əldə etmək mümkündür. Blokçeyn artıq gələcəyin əlçatan texnologiyasıdır və biz onu öyrənib real həyatda tətbiq etməyə bacarmalıyıq", deyə AppLab proqramının məzunu, müxtəlif uğurlu layihələrin müəllifi, WAVES platformasının səfiri və Blokçeyn üzrə təlimçi Orxan Əhmədov bildirib.**

**AppLab proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "«Bakcell»"dən dəstək alırlar. İştirakçılar müvafiq təlimlərlə yanaşı, şirkətin AppLab Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. AppLab Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.**

**İnnovasiya sahəsində lider olan «Bakcell» gənc nəslin nümayəndələrinə onların inkişafı və innovativ ideyaların həyata keçirilməsi üçün tələb olunan şəraitin yaradılması və məsləhətlər ilə dəstək göstərməyə həmişə hazırdır.**

### Elan

**Ağdaş şəhərində Çələbiyeva Hərbiyyə İsmayıl qızına məxsus JN 4070A nömrəli torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

***

**Ağdaş rayonu Ağzıbir kəndində Əsgərov Surxay Zülfü oğluna məxsus JN 301 nömrəli dövlət aktı itdiyi üçün etibarsız sayılır.**



## Bakı-Sumqayıt yolunda dəhşətli qəza - yeni evlənən gənc öldü

**Bakı-Sumqayıt yolunda ağır yol-nqəliyyat hadisəsi baş verib. "Report"un Sumqayıt -Abşeron bürosunun məlumatına görə, Sumqayıtdan Bakı istiqamətində hərəkətdə olan 99-RA-025 dövlət nömrə nişanlı, "Hyundai-Sonata" markalı avtomobil idarəetmədən çıxaraq yolun kənarındakı dəmir arakəsmələrə çırpılıb.**

Hadisə zamanı avtomobildə olan sərnişin, 24 yaşlı Məmmədov Elvin Mikayıl oğlu dünyasını dəyişib. Sürücü isə ağır yaralanıb.

Qeyd edək ki, qəzada dünyasını dəyişən gənc Sumqayıt Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşı Mikayıl Məmmədovun oğludur.

Məlumata görə, Elvin Məmmədovun bu yaxında toyu olub.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 214 (7103) 11 oktyabr 2018

# Dünyada 25 mindən çox qadın pilot var

## Azərbaycanda sovetlər dönəmində qadın pilotlar olsa da, müstəqillik illərində bu sahəyə maraq göstərən olmayıb; hazırda isə 5 qadın pilot akademiyada təhsil alır

**Sovet dövründə Azərbaycanın da qadın pilotları, maşinistləri, avtobus, tramvay sürücüləri, gəmi kapitanları var idi. Lakin bu gün nə qadın pilotumuz, nə də maşinistimiz var. O cümlədən ictimai nəqliyyatda da qadınlara çox nadir hallarda rast gəlinir. Bakıda bir neçə qadın taksi sürücüsü olsa da, ölkədə yeganə avtobus sürücüsü Tovuz rayonunda yaşayan Bahar Tahirova hesab olunur. O, 35 ildən çoxdur ki, peşəkar avtobus sürücüsü kimi çalışır.**

Sevindirici haldır ki, ölkəmizdə yeganə də olsa yaxta kapitanı var. Bu, Tatyana Srebnayadır. Qadın kapitan əksər hallarda yelkənli qayıq idmanı yarışlarında iştirak edir. Onun sözlərinə görə öz taleyini hələ 1980-ci ildən dənizlə bağlayıb. O, vaxtilə Sovetlər Birliyi donanmalarının idmançıları arasında keçirilən müsabiqədə Azərbaycanı təmsil edən yeganə qadın olub. Hazırda isə dənizə yaxta kapitanı kimi çıxır.



Pilot qadınlara gəldikdə isə, qeyd edək ki, Azərbaycanda hazırda 335 pilot çalışır ki, onların da arasında qadın pilot yoxdur. Yalnız Dövlət Sərhəd Xidmətində ilk və yeganə olaraq qadın pilot kapitan Dilarə Babayeva idi, lakin təəssüflər olsun ki, 3 il öncə o, zəhərlənmə nəticəsində bətnindəki 36 həftəlik körpəsi ilə birgə dünyasını dəyişib.

Dünya təcrübəsinə gəldikdə isə məlumata görə, ümumilikdə dünyada təxminən 25 mindən çox qadın pilot var ki, onun da 2000-dən çoxu ABŞ-da, 178-i Türkiyədə, 30-u Rusiyada və digər ölkələrdədir. Maraqlıdır ki, qadın pilotların sayına görə dünyada birinci yeri Hindistan tutur. Halbuki Hindistan gender bərabərliyi baxımından böyük iyirmiliyin ən pis ölkəsi elan olunmuşdu. Beləliklə, Aviasiya Pilotlarının Beynəlxalq Assosiasiyasının məlumatına görə, əgər dünyada qadın pilotların sayı 5 faiz göstərilirsə, Hindistanda bu göstərici 13 faizdir. Bu göstərici isə bir sıra Qərb ölkələrindəki göstəricidən 2 dəfə çoxdur. Hazırda Hindistanın aviasiya bazarı ən sürətlə inkişaf edən aviasiya bazarlarından biridir və ölkədə aviaşirkətlər pilot qıtlığı ilə üzləşir.

Qeyd etdiyimiz kimi, hazırda Türkiyə Hava Yollarında 178 pilot qadın var. Bu isə ümumi pilotların sayının 3,8 faizi deməkdir. Hər keçən il onların sayı daha da artmaqdadır. Məşhur türkiyəli qadın pilotlardan Eser Aksanı, Ece Korkmaz, Pınar Aktuğ, Aşkım Pelin Önər, məşhur futbolçu Sabri Sarıoğlunun həyat yoldaşı Yağmur Sarıoğlunu göstərmək olar.

İranda da yaxın zamanlarda aviasiyada qadın pilotlar çalışacaq. Bir müddət bundan əvvəl ölkənin ən böyük aviaşirkəti olan "İran Air" qadın pilotlar üçün vakansiya açılması barədə qərar qəbul edib. O da qeyd olunub ki, qadın pilotların olması çox vacibdir və qadınlar müvafiq kurslar keçdikdən sonra ikinci pilot kimi çalışacaqlar.

Gürcüstanda isə yeganə bir pilot qadın var ki, o da erməni əsillidir. Bəs Azərbaycanda hazırda niyə qadın pilotlar yoxdur? Qadınların özləri pilot olmağa cəhd göstərmək istəmir, yoxsa?..

**Azərbaycan Hava Yolları Şirkətinin sözçüsü Paşa Kəsəmənski ölkəmizdə qadın pilotların olmadığını təsdiqləyib və qeyd edib ki, yaxın zamanlarda Azərbaycan aviasiyasında da qadın pilotlar fəaliyyətə başlayacaq:** "Hazırda 5 qadın pilot akademiyada təhsil alır. Bu məsələdə biz MDB ölkələri arasında ilkə imza atmışıq".

**Aviasiya mütəxəssisi Ədalət Əliyev də mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Bundan əvvəl ölkəmizdə qadın pilotlar olub. Lakin müstəqillik qazandıqdan sonra bu məsələ səngidi. Həmin illərdə, ümumiyyətlə, təhsil verən aviasiya akademiyası yox idi. Buna görə də 1992-ci ildə Bakıda Milli Aviasiya Akademiyası yaratdım. Həmin vaxt da qarşımıza məqsəd qoymuşduq ki, təyyarəçi fakültəsinə qadın pilotlar da dəvət edək. Lakin ərizə verən olmadı. Ümumiyyətlə, nəinki qadınlar, kişilər də bu sahəyə o qədər meylli deyildi.

Son zamanlar isə pilot olmaq istəyən qadınlar da ərizə ilə müraciət etdi və hazırda onlar təhsil alır, gələcəkdə pilot kimi çalışacaqlar".

Bir məsələni də qeyd edək ki, Bakı Metropoliteninə qadın maşinistin də olacağı barədə məlumat yayılıb. Qurumdan bu günlərdə verilən məlumata görə, hərəkət qatarlarının maşinisti peşəsi üzrə namizədlərin seçim prosesi başa çatıb. Proses zamanı 10-dan artıq qadın da müraciət edib, lakin müsahibə mərhələsində onlardan yalnız 3-ü iştirak etmək istəyib. Bütün mərhələləri yalnız bir qadın uğurla keçərək, təlim-tədris prosesinə qatılıb.

Yaxın vaxtlarda həmçinin avtobuslarda da qadın sürücülər çalışacaq. Belə ki, bu günlərdə "Xaliq Faiqoğlu" MMC ilk dəfə olaraq ictimai nəqliyyatda sürücü kimi işləmək istəyən xanımları əməkdaşlığa dəvət edib. Bildirilib ki, qadın sürücülər 8 saatlıq iş rejimində fəaliyyət göstərəcək və "EURO 5" standartlı müasir avtobusları idarə edəcək.

Qeyd edək ki, dünyanın demək olar ki, əksər ölkələrində ictimai nəqliyyatda qadın sürücülər var. İranda belə avtobus idarə edən qadınlar var.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Kirayə mənzil bazarında vergi qaçaqçılığı...

## **Ramil Osmanlı:** "Vergilər Nazirliyi ilə yanaşı, yerli icra hakimiyyəti və polis orqanları da bu məsələyə cəlb olunmalıdır"

**Son illərdə hökumətin vergi siyasətinə tətbiq olunan dəyişikliklərdən sonra bir çox sahələrin, o cümlədən kirayə mənzillərin də vergiyə cəlb olunmasına qərar verildi. Belə ki, artıq evlərini kirayə verən şəxslər də dövlətə vergi ödəməlidirlər.**

Məlum olduğu kimi, avqustun sonlarından başlayaraq kirayə bazarında canlanma başlayır və payız aylarında tendensiya davam edir. Bu ərəfədə minlərlə kirayə sövdələşməsi baş tutsa da, əksəriyyəti müqavilə ilə rəsmiləşdirilmir və vergidən yayınmış olur. Bakıda 4 milyona yaxın insanın məskunlaşdığını və onların ən azı dörddəbirinin kirayə mənzillərdə yaşadığını nəzərə alsaq, hər il büdcədən nə qədər böyük məbləğdə bir vəsaitin yayındığını hesablamaq olar. Qanunun tələbinə görə, vətəndaş evini kirayə verirsə, vergi orqanına ərizə ilə müraciət edərək vergi orqanında uçota alınmalı və Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi (VÖEN) əldə etməlidir. VÖEN-i olan vətəndaş kirayə haqqından əldə etdiyi gəlirdən dövlət büdcəsinə Vergi Məcəlləsinin 101.2-ci maddəsi ilə müəyyən edilmiş qaydada vergi ödəməli və vaxtaşırı vergi orqanına gəlir vergisinin bəyannaməsini təqdim etməlidir.

Bəs görəsən, hazırda buna əməl edilirmi? Kirayə mənzil bazarında sövdələşmələrin rəsmiləşməsi və vergi ödənilməsi proseduru necə aparılır?



**Mövzu il bağlı "Yeni Müsavat"a açıqlama verən daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirdi ki, Azərbaycan Respublikasının vergi qanunvericiliyində bu məsələ nəzərdə tutulub:** "Fiziki şəxslər öz mənzillərini kirayə verdiklərinə görə gəlir vergisinə cəlb olunurlar. Ancaq çox təəssüflər olsun ki, Azərbaycanda kirayə sövdələşmələri, razılaşmalar əksər hallarda rəsmiləşdirilmir. Bu öhdəliklər müqavilə ilə həllini tapmır. Ona görə də vergidən yayınma halları baş verir. Yeni vergidən yayınma hallarına səbəb olan əsas məsələ kirayə müqavilələrinin rəsmiləşdirilməməsidir. Təəssüflər olsun ki, hazırda Vergilər Nazirliyinin bu cür resursları mövcud deyil ki, onlar ən azı Bakı şəhərində qeyri-rəsmi olaraq kirayə verilmiş mənzilləri araşdırıb tapsınlar. Həmçinin onlar haqqında hər hansı vergi sanksiyası və ya cərimələr tətbiq etsinlər, qanuni fəaliyyət göstərməyə cəlb etsinlər. Hesab edirəm ki, Vergilər Nazirliyi ilə yanaşı müvafiq yerli icra hakimiyyəti orqanlarının əməkdaşları, o cümlədən polis orqanları bu məsələyə cəlb olunmalıdırlar. Əks halda, mən düşünmürəm ki, bu problemin həll edib aradan qaldırmaq mümkün olsun".

Qeyd edək ki, Vergi Məcəlləsinin 124.1-ci maddəsinə əsasən isə daşınmaz əmlak üçün icarə haqqından ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur. Lakin bəzən vergi ödəyiciləri kirayə müqavilələrində icarə haqqının məbləğini faktiki məbləğdən az göstərir, bir çox hallarda isə mənzillər heç bir rəsmiləşmə olmadan icarəyə verilir. Belə olan halda vergidən yayınan şəxslərə qanunvericiliklə müəyyən edilmiş inzibati cəzalar tətbiq oluna bilər. Vergi Məcəlləsinin 14-cü maddəsinə əsasən, kirayə haqqının məbləği müqavilədə tam göstərilmədiyi və ya əmlak müqaviləsi olmadan icarəyə verildiyi halda vergi orqanları icarə müqaviləsində göstərilən qiymətlə deyil, bazar qiymətləri əsasında vergiləri hesablamaq səlahiyyətinə malikdir. Mənzilini kirayə verənlər vergidən yayındıqda onun barəsində bu məsuliyyət tədbirləri tətbiq oluna bilər:

*- Müəyyən olunmuş müddətdə vergi orqanlarında uçota alınmamağa və bəyannamə vermək öhdəliyi olan vergi ödəyicisi tərəfindən əldə etdiyi və ya ödədiyi icarə haqlarına görə müəyyən olunmuş müddətdə hesabat təqdim edilməməsinə görə, hər bir nöqsana görə ayrı-ayrılıqda 40 manat (yəni 80 manat) məbləğində maliyyə sanksiyası tətbiq edilir. Verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləğin faktiki məbləğə nisbətən azaldılmasına, habelə vergi məbləğinin hesabat təqdim etməməklə yayındırılmasına görə azaldılmış və ya yayındırılmış məbləğin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.*

❑ **Nərgiz LİFTİYEVA, Yeni Müsavat**

YENİ MÜSAVAT

Son səhifə

N 214 (7103) 11 oktyabr 2018



# Oğlunu Ferrari ilə dərsə gətirdi, nifrət qazandı

Çində ata oğlunu məktəbə bahalı maşınla apardığı üçün digər valideynlərin nifrəti ilə qarşılaşıb. Bu barədə "South China Morning Post" nəşri xəbər verib. İnsident Xançjou şəhərində baş verib. Li soyadlı ata tikinti şirkətində çalışır və ildə 4 milyon yuan qazanır. O, ibtidai məktəbə gedən oğlunu "Ferrari 488" ilə dərsə aparıb. Bu isə digər valideynlərdə hiddət və narazılıq doğurub. Onlar bu məsələni məktəb müəllimləri və valideynlərindən ibarət ortaq vatsap qrupunda bildiriblər. Narazılıq varlılığın nümayiş etdirilməsinə qarşı olub. Müəllimlərdən biri bildirib ki, bu hərəkət sinifdə düzgün olmayan müqayisələrin yaranmasına səbəb ola bilər. Onlar Liyə uşaqlarını daha təvazökar bir maşında məktəbə gətirməsini tövsiyə ediblər.

Amma biznesmen maşınını dəyişdirmək fikrində deyil. O, vatsap qrupda yazıb ki, maşını əziyyətlə alıb və oğluna da dünyadakı ən gözəl nemətləri layiq görür: "Əgər mənim bu maşınla gəlməyim sizin uşaqlarınızın hisslərinə təsir edəcəksə, sizin uşaqlarınız çox incədilər. Mən nəyə görə sizin istəyiniz əsasında başqa maşın almalıyam? Öz bahalı maşınımı sürməməliyəm? Xoşunuz gəlmirsə, siz özünüzə bahalı maşın alın". Valideyni bu tərzindən sonra vatsap qrupdan çıxarıblar.

# "İkinci dəri" qırışları yox edir

Alimlər insanları cavanlaşdırmaq üçün yeni krem icad ediblər. Polimlərdən əldə edilən krem dəriyə sürtüləndə ikinci bir dəri kimi qoruyucu təbəqə təşkil edir. Alimlər qadınların qorxulu röyası olan qırışlara qarşı insan dərisini təqlid edən və dəri üzərində "ikinci bir dəri" təşkil edən krem yaradıb. Harvard Universiteti Tibb Fakültəsi və MİT (Massachusetts ttp://www.sabah.com.tr/haberleri/massachusetts Institute of Technology) araşdırmaçıları tərəfindən hazırlanan polimer krem üzə vurulandan sonra quruyub dəri üzərində elastik bir "ikinci dəri" yaradır. Laboratoriyada silikon və oksigen molekulları tətbiq olunaraq hazırlanan polisiloksan polimerdən hazırlanan krem qırışan dərini toparlamaq və göz altındakı torbaları yox etmək üçün istifadə olunur. Krem kosmetika sahəsindəki istifadəsi ilə yanaşı, dermativ və sədəf xəstəlikləri, dəri narahatçılıqlarının müalicəsində də tətbiq olunur. Bu zaman dərman birbaşa dəriyə verilirsə, onun qorunmasına da yardım edir. Krem suya davamlıdır və 24 saat xarab olmadan dərinin üstündə qala bilir.



Araşdırmaçılar hazırladıqları məhsulu könüllülər üzərində, xüsusən də gözaltı torbacıqları, qol və ayaq hissələrində sınaqdan keçirdi və uğurlu nəticələr aldı. Kremin lazımlı icazəsi alınandan sonra yaxın illərdə bazara çıxarılacağı gözlənilir.

# Əri öldü, bədənini tatuirovkaya bürüdü



Yaşlı britaniyalı qadın əri öləndən sonra bədəninə 16 tatuirovka vurdurub. Əri sağlığında onun bu hobbisini sevməyib. Bu barədə "The Mirror" nəşri xəbər verib. İlk dəfə Qlenis Kup adlı qadın 1960-cı illərdə bədəninə bir neçə tatuirovka vurdursa da, sonradan onu sildirib. Çünki bu, onun ərinin xoşuna gəlməmişdi. Amma ərinin 2014-cü ildə ölümündən sonra qadın köhnə peşəsinə qayıdıb. İndi onun əllərində, döşündə və sinəsində rəngli tatuirovkalar var. Qadın etiraf edib ki, kədərə qarşı savaşmaq üçün bədəninə tatuirovka vurdurub. Onun döşündə ürək formasında ərinin adı yazılan tatuirovka var. O, əri ilə 54 il evli olub.

Britaniyalı qadın tatuirovka üçün təqaüdündən pul yığır və bir neçə aydan bir tatu salonuna gedir. 77 yaşlı Kup bu günə qədər tatuirovkalarına 2 min funt xərcləyib. Özü isə deyir ki, bu gözəlliyə dəyərdi. Qadın etiraf edir ki, hazırda çiynində tatuirovka etdirmək istəyir və bunun üçün pul yığır. Bu tatuirovkanı da etdirəndən sonra qadın o qədər də böyük olmayan fasilə verəcək.

Kupun dediyinə görə, insanlar küçədə onun tatularına reaksiya verirlər və bu, onun vecinə də deyil: "Mən həyatı dolu-dolu yaşayıram və yaşıma görə də heç nəyə məhdudiyyət qoymuram". O, öz qohumlarını inandırmağa çalışır ki, belə məsələlərdə özünə məhdudiyyət qoymaq lazım deyil.




**QOÇ** - Maraqlı görüşləriniz gözlənilir. Ola bilsin ki, həsrətində olduğunuz şəxslərlə rastlaşasınız. Saat 14-17 arası yeni işlərlə bağlı səmərəli sövdələşmələriniz də mümkündür.

**BUĞA** - Maddi rifahınız normal olsa da, münasibətlər zəminində müəyyən sıxıntılarla üzləşə bilərsiniz. Bu isə son vaxtlar güzəştə getməməyinizdən doğur. Nahardan sonra qonaqlıq gözlənilir.

**ƏKİZLƏR** - Bu gün zehni işləri azaldıb daha çox dincəlməlisiniz. Fəaliyyətə isə ümumiyyətlə, ara verməyiniz məsləhətdir. Günün ikinci yarısını ailə-sevgi münasibətlərinə həsr edin.

**XƏRÇƏNG** - Başqalarının adınızdan istifadə etməsinə imkan verməyin. Çalışın ki, öz işinizə özünüz qərar verəsiniz. Səhhətinizə fikir verməyi tövsiyə edən ulduzlar varlanacağınızı da bildirir.

**ŞİR** - Nahara qədər bütün ciddi işləri təxirə salın. Yoxsa gərginlikdən qurtula bilməyəcəksiniz. Bədxah insanlarla rastlaşma ehtimalınız olduğundan bacardığınız qədər təmkin göstərin.

**QIZ** - Büdcənizdə artım etmək üçün imkan qazana bilərsiniz. Bu səbəbdən də alacağınız əmanətləri əldə etmək üçün ciddi addımlar atın. Bu gün "çağrılmamış qonaq" rolunda çıxış etməyin.

**TƏRƏZİ** - Olduqca rəvan bir gündür. Çoxsaylı və maraqlı hadisələrlə rastlaşacaqsınız. Amma acıdil adamların atmacalarına təmkinlə yanaşmalısınız. İki sürpriz də gözlənilir.

**ƏQRƏB** - Fiziki cəhətdən zəiflədiyinizdən fəaliyyət barədə az düşünün. Hansısa riskli işə baş qoşmağa dəyməz. Saat 15-dən sonra şəxsi büdcənizdə müəyyən artımlar gözlənilir. Səfərə çıxmayın.

**OXATAN** - Ulduzlar süst olduğunuzu göstərsə də, ümidsizləşməməli, həyata nikbin nəzərlərlə baxmalısınız. Planetlərin müsbət konfiqurasiyası bu təqvimdə yeni layihələri müzakirə etməyi məsləhət görür.

**OĞLAQ** - Əgər səhhətiniz qaydasındadırsa, başqa məsələlərdə nigarançılıq çəkməyəcəksiniz. Nahar ərəfəsində aldığınız dəvətlərdən imtina etməyə çalışın. Qiymətli əşyalarınızı qoruyun.

**SUTÖKƏN** - Bu gün enerjiniz zəif olsa da, perspektivlərinizlə bağlı apardığınız bütün sövdələşmələr uğurlu olacaq. İşgüzar görüşlərdən qaçmayın. Bu təqvim alqı-satqı üçün də düşərlidir.

**BALIQLAR** - Adətən ilin bu çağlarında mütləq səhhətlə bağlı problemlə üzləşirsiniz. Bunu nəzərə alıb qeyri-ənənəvi işlərdən uzaq olun. Keçmişdə baş verən münaqişələrin müzakirəsindən çəkinin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qayğanaq bişirib videosunu yaydı, milyonlar izlədi



Avstraliyada qayğanaq bişirilməsi ilə bağlı videonu 3 gün ərzində 1.1 milyon nəfər izləyib. Lenta.ru saytının xəbərinə görə, bu, adi qayğanaq bişirmə videosu olmayıb. Belə ki, burada ölkənin iqlim qurşağına diqqət çəkilib. Videonun ana xətti isə belə olub ki, Avstraliyada qayğanaq bişirmək üçün plitə və ya elektrik sobasına ehtiyac yoxdur. Video müəllifinin yazdığına görə, yumurta və günəş insanların bu arzusunu yerinə yetirə bilir. Bundan başqa, əlavə edib ki, Avstraliya ərazisində təkcə yayda yox, il uzunu bu üsulla qayğanaq bişirmək mümkündür. Videorolikdə isə öncə ölkənin isti iqlimi, çöllərdə sürünən ilanlar, qızmar günəş nümayiş etdirilir. Ardınca isə daşın üstünə yumurta çırpılır və az keçmədən o, hazır olur. Sonda etiraz əlaməti olaraq qaz plitəsinə atılan stullar, yumurtalar göstərilir. Motiv isə belə olur ki, təbiət bizə hər mənada dostdur, əlavə heç nəyə ehtiyac yoxdur.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100